## Laçın istiqamətində mövqelərimiz atəşə tutulub

### Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb



**Aprelin 7-si saat 13:20-dən 13:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumatda deyilir.

"Qeyd olunan istiqamətdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb", - məlumatda vurğulanıb.



## Xəzər dənizində zəlzələ olub

**Xəzər dənizində zəlzələ baş verib.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Zəlzələ saat 20:03-də qeydə alınıb.

Yerin 62 kilometr dərinliyində baş verən təkanların gücü 3,9 bal olub.


❒ № 60 (5821) 2023-cü il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 aprel 2023-cü il (şənbə)




# Ruslar Qarabağı tərk edirlər!

### Xankəndinin Azərbaycanın nəzarətinə keçməsi gündəmdədir

**"Rusiya sülhməramlılarının öz vətəndaşlarını Qarabağdan çıxarması çoxdan nəzərdə tutulurdu. Lakin indi həyata keçirilməyə başlayıb".**

Bunu "Şərq"ə açıqlamasında "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri politoloq Samir Hümbətov deyib. O bildirib ki, artıq proseslərin son mərhələsidir: "Xankəndinin Azərbaycanın nəzarətinə keçməsi gündəmdədir. Rus vətəndaşları Qarabağda yaşamaq istəmədiyindən belə addım atmaları mümkündür. Həmçinin qarşıdurma riskini düşünərək hərbçilərin ailəsinin Rusiyaya qayıtmasına şərait yarada bilərlər.

Başqa bir ehtimal isə rusların Azərbaycanın nəzarətinə keçmiş ərazilərdə yaşamaq istəmədiklərindən ərazini tərk etmələridir".

(səh.2)

# Heç 48 saat çəkmədi

### Qovulan iranlı diplomatlar Azərbaycanı tərk etdilər




**Azərbaycanın "arzuolunmaz şəxs" elan etdiyi İran səfirliyinin 4 əməkdaşı ailələri ilə birlikdə Biləsuvar gömrük-sərhəd buraxılış məntəqəsindən keçərək ölkələrinə yola düşüblər. Qeyd edək ki, aprelin 6-da İran səfirliyinin dörd əməkdaşı - Mirmahdi Mirsalampur, Şərif Qurbanəli, Purmərcan Varcovi, Hadı Moğadam, Əsgər Bahari Xoş Mənzər Azərbaycan hökuməti tərəfindən "persona non grata" elan edilib.**

Bildirilib ki, müəyyən olunmuş şəxslər Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyət göstəriblər. O səbəbdən İran səfirliyindən həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb olunmuşdu.

Siyasi şərhçi Asif Nərimanlı vurğulayıb ki, Bakıdakı səfirlik İranın Azərbaycan daxilində həyata keçirmək istədiyi planların mərkəzi rolunu oynaya bilər. Analitikin qənaətincə, istisna deyil ki, "arzuolunmaz şəxs" elan edilən 4 diplomatın bu addımları idarə edəcək fiqurlar olduğuna dair kəşfiyyat məlumatları olub: "Ötən ilin noyabrında DTX-nin keçirdiyi əməliyyat da İran səfirliyinin bu kimi fəaliyyətinə dair faktları ortaya çıxardı.

(səh.3)



## Gürcüstan və Azərbaycan eyni yola çıxıblar

### Əsas məqsəd regionda sülh və sabitliyi təmin etməkdir

**"Gürcüstan və Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir. Biz dostuq, müttəfiqik, xalqlarımızı qardaşlıq əlaqələri bağlayır". Bunu Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatı zamanı deyib.**

Dövlət başçısı bildirib ki, bütün müzakirə olunan məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq: "Təbii ki, Gürcüstan və Azərbaycan Avropanın bu gün enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır. Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlığı Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir".

(səh.2)

## Səfirlik casus yuvasıdır

### Millət vəkilləri İranı Azərbaycana qarşı təxribatlara son qoymağa çağırıb



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib.**

Milli Məclis İran parlamentinin aprelin 5-də bəyanat qəbul etməsini Azərbaycan dövlətinin daxili işinə müdaxilə kimi qiymətləndirib və cavab bəyanatı qəbul edib. Vurğulanıb ki, İran parlamentinin qərəzli bəyanatı Azərbaycana qarşı həyata keçirilən növbəti siyasi təxribatdır...

(səh.2)

# Çörəyin qiyməti yenidən ucuzlaşa bilər

### Hazırda dünya bazarında satışa kifayət qədər buğda çıxarılır və panika dövrü geridə qalıb



**Azərbaycanda martın 11-dən etibarən iri market şəbəkələrində 650 qramlıq dairəvi (zavod) çörəyin qiyməti 70 qəpikdən 65 qəpiyə düşüb. Eyni zamanda un bazarında isə 50 kq-lıq bir kisə unun topdansatış qiyməti 9 mart 2023-cü il tarixində 35,5 manat - 37,2 manat olub. 2022-ci ilin avqust ayında bu göstərici 40,7 manat - 41,5 manat təşkil edirdi.**

Aprelin 10-dan etibarən Gürcüstanda da çörəyin 10 tetri ucuzlaşması ilə bağlı qərar qəbul olunub. Bu qərardan sonra Azərbaycanda çörəyin yenidən ucuzlaşması ehtimalı yaranıb.

(səh.4)



## Nikaha dair prosedurlar dəyişir

**Nikaha daxil olmaq istəyən tərəflərin tibbi müayinədən keçmələri barədə arayış elektron formada tərtib olunaraq, tibb müəssisəsi tərəfindən Səhiyyə Nazirliyinə, Səhiyyə Nazirliyindən isə Ədliyyə Nazirliyinin müvafiq informasiya sisteminə ötürüləcək.**

Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılmış Ailə Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, nikahın ləğvi, etibarsız sayılması barədə məhkəmə qətnaməsindən çıxarış dərhal "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə Ədliyyə Nazirliyinin müvafiq informasiya sisteminə ötürüləcək. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

## Buraxılış imtahanında ən yüksək balı Arif Hacıyev topladı




**Məlum olduğu kimi, martın 5-də keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub.**

Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, imtahanda ən yüksək nəticəni Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin şagirdi Arif Hacıyev göstərib. O, 296.7 bal toplayıb.

## Aksiyaya baxmayaraq yol açıqdır



**Dünən Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus avtomobillərin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

Toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz hərəkəti təmin olunub.

Belə ki, 2 minik və 3 yük avtomobili Laçından Xankəndi istiqamətinə maneəsiz hərəkət edib.

Bundan əvvəl isə 8 avtomobil müxtəlif vaxtlarda hər iki istiqamətə keçid edib.

Bir minik avtomobil isə əks tərəfə keçib.

Bu isə bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Bununla da dünən bu dəqiqələrə qədər Xankəndi-Laçın yolunda hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 83-ə çatıb.



## "Biz deyirdik ki, bu işin axırı pis olacaq"

Cavanşir Quliyev: "Musiqi zövqü korlanan insanların tərbiyəsi də olmur"

(səh.7)



## "Narkotik qaçaqmalçılarını yerindəcə məhv etmək əmri verilib"

DSX rəisinin müavini: "İran xüsusi xidmət orqanları Azərbaycana qarşı fəaliyyətində narkotik qaçaqmalçılığından istifadə edir"

(səh.4)

# Gürcüstan və Azərbaycan eyni yola çıxıblar

## Əsas məqsəd regionda sülh və sabitliyi təmin etməkdir



### *Orta Dəhliz üzərindəki bütün maneələr birgə fəaliyyətlə aradan qaldırılacaq*

**"Gürcüstan və Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir. Biz dostuq, müttəfiqik, xalqlarımızı qardaşlıq əlaqələri bağlayır". Bunu Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatı zamanı deyib. Dövlət başçısı bildirib ki, bütün müzakirə olunan məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq: "Təbii ki, Gürcüstan və Azərbaycan Avropanın bu gün enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır. Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir".**

### "İldən-ilə Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı artmaqdadır"

**Prezident vurğulayıb ki, ildən-ilə Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı artmaqdadır:** "Bütövlükdə bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kub metr qaz ixrac edəcək və ildən-ilə bu rəqəm artır. Keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, biz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kub metr qazın nəql edilməsini təmin etməliyik. Əminəm ki, biz bu rəqəmə çatacağıq".

**Prezident bildirib ki, indiki geosiyasi vəziyyəti nəzərə alaraq, əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri bütün ölkələr üçün ön plana çıxır:** "Uzun illər Azərbaycanın şirkəti SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir və mənə dünən verilən məlumata görə, SOCAR Gürcüstanda 11 min kilometr uzunluğunda qaz xətləri çəkmişdir və beləliklə, 830 mindən çox abonentin təbii qazı təmin edilib".

Ölkə rəhbəri qeyd edib ki, keçən il Mərkəzi Asiya ölkələrinə dəfələrlə səfərlər edib, bu il də edəcək: "Yeni yüklərin Orta Dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda, yüklərin cəlb edilməsi üçün və nəqli üçün birgə səylər atılmalıdır. Təbii ki, bu gün bu məsələ də geniş müzakirə olunub və hələ olunacaq".

### "Gürcüstanla ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılır"

**Prezident bəyan edib ki, Gürcüstanla ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılır:** "Gürcüstan-Azərbaycan əlaqələri bir çox sahələri əhatə edir: müdafiə sənayesi, təhsil, mədəniyyət, turizm, texnologiyalar, kənd təsərrüfatı. Əlbəttə ki, ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılır. Əminəm ki, cənab baş nazirin bugünkü səfəri bizim əlaqələrimizə yeni təkan verəcəkdir".

Prezident qeyd edib ki, Orta Dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərir: "Təbii ki, ikitərəfli əlaqələrimizin önəmli hissəsi nəqliyyatla bağlıdır, burada da bütün işlər uğurla, planla gedir. Orta Dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərir. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımalarının həcminin artırılması istiqamətində əlavə addımlar atılacaq".

### "Gələcəkdə energetika sahəsində əməkdaşlığın yeni istiqamətləri üzrə biz fəal işləyəcəyik"

**Azərbaycan Prezidenti bəyan edib ki, gələcəkdə energetika sahəsində əməkdaşlığın yeni istiqamətləri üzrə biz fəal işləyəcəyik:** "Gələcəkdə energetika sahəsində əməkdaşlığın yeni istiqamətləri üzrə biz fəal işləyəcəyik. Daha doğrusu, bu iş artıq başlanıb. Keçən ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya önəmli sazişə imza atmışlar. Və bu ilin fevral ayında Bakıda Yaşıl Enerji layihəsinin birinci rəhbər komitəsinin iclası keçirilmişdir. Bu, genişmiqyaslı layihədir və əlbəttə ki, bu layihənin uğurla həyata keçirilməsi həm 4 ölkənin birgə fəaliyyəti hesabına mümkün olacaq, eyni zamanda, bildiyiniz kimi, Avropa İttifaqı da bu layihəyə çox böyük önəm verir. Təsadüfi deyil ki, Avropa Komissiyanın Prezidenti imzalama mərasimində də iştirak etmişdir".

### "Azərbaycan Gürcüstanın mühüm strateji tərəfdaşıdır"

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili deyib ki, Azərbaycan Gürcüstanın sadəcə dostu deyil, həm də mühüm strateji tərəfdaşıdır:** "Azərbaycan sadəcə dostumuz və tərəfdaşımız deyil, bizim mühüm strateji tərəfdaşımızdır. Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələri həyata keçirmişik. Bu layihələr xalqlarımızı və ölkələrimizi daha da birləşdirdi. Biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonra da bu belə olacaq".

Qaribaşvili bildirib ki, Orta Dəhliz üzərindəki bütün maneələr birgə fəaliyyətlə aradan qaldırılacaq: "Orta Dəhliz layihəsi ilə bağlı Azərbaycan və Gürcüstan koordinasiyalı şəkildə fəaliyyət göstərir". Hökumət başçısı əlavə edib ki, Orta Dəhliz üzərindəki bütün maneələr birgə fəaliyyətlə aradan qaldırılacaq və dəniz limanları, dəmir yolları da daxil olmaqla infrastruktur inkişaf etdiriləcək. Qaribaşvili Gürcüstanın hazırda yeni dəniz limanının (Anaklia) inşası üzərində çalışdığını qeyd edib. Əlavə edib ki, hazırda həyata keçirilən layihə çərçivəsində qarşıdakı bir il ərzində Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin fəaliyyəti də genişləndiriləcək və beləcə Orta Dəhlizə daha çox yüklər cəlb ediləcək.

**Gürcüstanın baş naziri deyib ki, əsas məqsədimiz regionda sülh və sabitliyi təmin etməkdir:** "Bizim əsas məqsədimiz regionda sülh və sabitliyi təmin etməkdir". Hökumət başçısı bu məqsədlə regionda daha çox layihələr həyata keçirilməli olduğunu əlavə edib.

**İsmayıl**



# Ruslar Qarabağı tərk edirlər!

## Xankəndinin Azərbaycanın nəzarətinə keçməsi gündəmdədir

**"Rusiya sülhməramlılarının öz vətəndaşlarını Qarabağdan çıxarması çoxdan nəzərdə tutulurdu. Lakin indi həyata keçirilməyə başlayıb".**

Bunu "Şərq"ə açıqlamasında "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri politoloq Samir Hümbətov deyib.

O bildirib ki, artıq proseslərin son mərhələsidir: "Xankəndinin Azərbaycanın nəzarətinə keçməsi gündəmdədir. Rus vətəndaşları Qarabağda yaşamaq istəmədiyindən belə addım atmaları mümkündür. Həmçinin qarşıdurma riskini düşünərək hərbçilərin ailəsinin Rusiyaya qayıtmasına şərait yarada bilərlər. Başqa bir ehtimal isə rusların Azərbaycanın nəzarətinə keçmiş ərazilərdə yaşamaq istəmədiklərindən ərazini tərk etmələridir".

*Qeyd edək ki, "Sputnik Armenia"nın yaydığı məlumata görə, Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının Qarabağdan 63 Rusiya vətəndaşının təxliyə edildiyi söylənilir. Onların arasında 5 uşaq da var.*

**Aygün Tahir**

# 222 min əhalisi olan bir rayonda peşə məktəbi yoxdur

## Hacıbala Abutalıbov və İlqar Abbasov Suraxanıda nə torpaq varsa, hamısını satıb və zəbt ediblər



**"Bələdiyyələrlə bağlı çox mühüm fərman və sərəncamlar var. Ancaq icra olunurmu?". Bunu Milli Məclisdə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunda dəyişikliklərin müzakirəsi zamanı deputat Etibar Əliyev deyib. Parlament üzvü bildirib ki, 15 yanvar 2001-ci ildə "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" qanunun tətbiq edilməsi barədə fərman var. Ancaq hələ indiyə kimi əmlak bələdiyyələrə verilməyib:** "Bakı bələdiyyələrinə torpaqların xəritəsi belə verilməyib. Bələdiyyələr sənədsiz evlərdən vergi yığa bilmir. Seçildiyim Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində 6 mindən çox sənədsiz ev var. Mədən vergisi bələdiyyələrdən alınaraq Dövlət Vergi Xidmətinə verilib. Bələdiyyələrə əmlak vergisi və torpaq vergisi qalıb. Torpağın 1 sotuna tutulan vergi 60 qəpikdir. Bu vəsaitlə yerli idarəetmə qurumunu necə saxlamaq olar?

Seçildiyim Suraxanı rayonuda 20 ilə yaxın müddətdə dərəbəylik hökm sürüb. Mən açıq danışacam. Biz çox vaxt ictimai maraqları şəxsi maraqlara qurban veririk. Adını çəkdiyim bu rayonda 5 il icra başçısı işləmiş Hacıbala Abutalıbov və ondan sonra 14 il bu rayonda icra başçısı işləmiş İlqar Abbasov rayonun nə torpağı varsa, hamısını satıb və zəbt ediblər. Bunlara qoşulanlardan biri də 30 il Suraxanı rayon Mənzil Kommunal Təsərrüfatı birliyinin sədri Mayis Məmmədov və Hacıbala Abutalıbovun qardaşının kürəkənidir".

**E.Əliyev vurğulayıb ki, 222 min əhalisi olan bir rayonda peşə məktəbi yoxdur:** "Lakin onlarla pab-restoranlar, qəlyanxanalar, diskoteka klubları var. Peşə təhsilinə tələbatı hamı bilir. Ancaq bu adamların əlindən gələcəkdə peşə təhsili məktəbinin tutumuna uyğun torpaq sahəsi tapmaq mümkün olmayacaq. Məncə, belə hallar başqa rayonlar üçün də xarakterikdir. Hansı bələdiyyə torpaqlarından danışmaq olar?! Belə adamların əlindən elə əvvəldən bələdiyyələr zəlil günə qalıblar".

**İsmayıl**

# Türkiyə Ukrayna savaşını dayandıra bilməz

## Lavrovun Türkiyə səfərində daha çox Cənubi Qafqaz bölgəsi ilə bağlı məsələlər müzakirə olunub



**Türkiyəyə səfər etmiş Rusiya xarici işlər naziri Sergey Lavrovla həmkarı Mövlud Çavuşoğlu arasında rəsmi danışıqlar keçirilib. Nazirlər iki ölkə arasındakı hərtərəfli əlaqələrlə yanaşı, regionda və dünyada baş verən hadisələrdən də söz açıblar. Təbii ki, əsas müzakirə predmeti Rusiya-Ukrayna arasında bir ildən artıqdır davam edən savaş olub. Mövlud Çavuşoğlu deyib ki, Türkiyə Rusiya-Ukrayna müharibəsinin müzakirələr vasitəsi ilə bitəcəyinə inanır.**

O qeyd edib ki, bunun üçün Ankara bir sıra səylər göstərib, lakin buna nail olmaq mümkün olmayıb. Çavuşoğlu, həmçinin, əlavə edib ki, taxıl təşəbbüsünün davam etdirilməsi üçün sazişin yerinə yetirilməsi lazımdır: "Bu günə qədər Ukraynanın üç limanından 866 gəmi ilə 20 milyon tondan çox taxıl dünya bazarlarına çıxarılıb". Çavuşoğlu qeyd edib ki, bölgədə Rusiya-Ukrayna müharibəsi ilə başlayan enerji böhranının qarşısının alınmasında Türkiyə üzərinə ciddi missiya alıb. O, həmçinin, "Şimal Axını" boru xəttində partlayış ilə bağlı müstəqil araşdırmanın aparılmasının vacibliyini vurğulayıb. Rusiya xarici işlər naziri Sergey Lavrov da bildirib ki, Moskva ABŞ-la ciddi danışıqlardan imtina etmir. ABŞ Dövlət katibi Entoni Blinkenlə aprelin 24-də Nyu-Yorkda BMT Baş Qərargahında görüşün keçirilməsinin mümkünlüyü ilə bağlı suala cavabında Lavrov ölkəsinin ciddi danışıqlar təklifindən imtina etmədiyini dəfələrlə açıqladığını qeyd edib: "Baxın, Blinken G20 XİN başçılarının görüşündə ayaqüstü görüşlə bağlı xahiş etmişdi. Biz ayaqüstü görüşdük. Mən həmkarımın nə dediyini dinlədim. Vəziyyət bundan ibarətdir. Bizim mövqeyimiz dəyişməzdir. Biz ciddi söhbət haqqında bütün təkliflərə baxmağa hazırıq". Lavrov deyib ki, Ukraynadakı vəziyyətin nizamlanması üzrə danışıqlar yalnız Rusiyanın qanuni maraqları nəzərə alınmasına əsaslana bilər. Onun sözlərinə görə, bu qanuni maraqlar təkəbbürlü şəkildə Qərb tərəfindən "iqnor" edilib: "Rusiya Federasiyasının həm prezidenti, həm də digər nümayəndələri dəfələrlə bildiriblər ki, biz danışıqlardan imtina etmirik, lakin bu danışıqlar yalnız bizim qeyd etdiyimiz əsasda, Rusiyanın qanuni maraqlarını, haqlı narahatlıqlarını nəzərə almaq əsasında baş tuta bilər". Rusiya XİN başçısı "Taxıl sazişi"ndən də danışıb. Bildirib ki, sazişin Rusiya hissəsi həyata keçirilmir, maneələr qalmaqda davam edir: "Bu paketin BMT ilə ölkəmiz arasında xüsusi memorandumda nəzərdə tutulan Rusiya hissəsi, ümumiyyətlə, həyata keçirilmir. Həm türkiyəli dostlarımız, həm də bütün paketin təşəbbüskarı BMT-nin Baş katibi cənab Antonio Quterreş Qərb ölkələrinə müvafiq çağırışlar və tələblər ünvanlayır, lakin hər şey nəticəsiz qalır. Rusiya məhsullarının ixracının maliyyələşdirilməsi, logistik rəsmiləşdirilməsi, sığortalanması yolunda maneələr qalır və hətta daha da sərtləşir. Əlbəttə ki, biz türk dostlarımızla BMT baş katibinin təşəbbüsü ilə qəbul edilən qərarların əngəlləndiyi bir şəraitdə bütün bu vəziyyətin gələcək perspektivlərini müzakirə edəcəyik".

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə açıqlamasında deyib ki, Rusiya XİN başçısı Lavrovun Türkiyə səfərinin arxasında duran əsas səbəblər ikili münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, həm də beynəlxalq məsələlərin müzakirəsi idi. Analitik düşünmür ki, Türkiyə təkbaşına Rusiya-Ukrayna münasibətlərinin nizama salınmasını reallaşdıra bilsin:** "Düzdür, Türkiyə "taxıl məsələsi"ndə müəyyən nailiyyət əldə etdi. Ancaq nəzərə alaq ki, taxılla bağlı problemin çözülməsində Qərb də maraqlı idi. Ona görə də danışığa gedilməsinə və razılaşmaya şərait yaratdılar. Lakin müharibənin bitməsi və sülhlə bağlı Kiyevin qəti şərtləri, tələbləri var. Ukrayna sülh danışıqlarına razılıq verməyə hazırdır, ancaq Qərb qarşısında şərt qoyur ki, rus qoşunlarını zəbt etdikləri bütün əraziləri tərk etməyə razı salsınlar. Bunun reallaşması indiki halda mümkün görünmür. Bir müddət öncə Türkiyə Prezidenti Ərdoğanın köməkçilərindən biri bildirmişdi ki, aprel ayında Putin-Zelenski görüşü planlanır, amma Qərb ölkələri buna imkan vermir. Yəni Qərb ölkələri Türkiyəyə təzyiq göstərirlər ki, Rusiya və Ukrayna liderlərinin təmasını təşkil etməsin. Buradan aydın olur ki, Rusiya-Ukrayna məsələsinin nizamlanması heç də Türkiyənin təkbaşına təşəbbüsündən və istəyindən asılı deyil. Burada Qərb faktoru var və göründüyü kimi onlar indiki mərhələdə müharibənin dayandırılmasını istəmirlər. Qərb Rusiyanı dizə gətirənədək savaşın davam etməsinin tərəfdarıdır. O baxımdan hesab edirəm ki, Lavrovun Türkiyə səfərində daha çox ikili münasibətlərin gələcəyi və Cənubi Qafqaz bölgəsi ilə bağlı məsələlər müzakirə olunub".

**İsmayıl Qocayev**

# Torpağın sahibi az qalır ki, infarkt keçirsin

## Vətəndaşlar sahib olduğu bələdiyyə torpaqlarında iş görə bilmir



**"Vətəndaş 10 il, 15 il, 20 il bələdiyyə torpağına sahib olub, ev tikib, kommersiya obyekti tikib, amma onun üzərində mülkiyyət və icarə hüququnu təmin edə bilməyib". Bunu millət vəkili Razi Nurullayev Milli Məclisin dünənki iclasında "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunun müzakirəsi zamanı deyib. Deputat bildirib ki, 10 il, 20 il vətəndaşa məxsus olan torpaqları hərraca çıxarıb onların başına müxtəlif tipli müsibətlər gətiriblər:** "Tutaq ki, 20 ildir torpaq mənimdir, o, hərraca çıxarılır və elə bu işi bilənlər və təşkil edənlər tərəfindən başqa rayonlardan öyrədilmiş şəxslər cəlb edilir ki, onlar qiyməti qaldırsınlar, yaxud alsınlar. Torpağın sahibi isə az qalır ki, infarkt keçirsin. Sonra düşür o şəxslərin arxasınca, yalvarır ki, Allahdan qorxun, belə pislik etməyin. Amma, o pisliyi yaradanlar və idarəedənlər olub və yenə də olacaq". Deputat bununla bərabər, bir narahatlığını da bölüşüb: "Müvafiq icra orqanı dediyimiz qurum müxtəlif bəhanələr altında əminəm ki, azı 10 nəfərdən 7-nə ciddi problem yaradacaq. Müxtəlif səbəblər gətirəcək və bu dəyişikliyin yaratdığı sevinci və ümidi o şəxslərin gözündə öldürəcək, rüşeymində boğacaq. Bunu təcrübədən çıxış edərək deyirəm. Ya profil komitə bununla bağlı bizi rahatladacaq məlumat versin, ya da narahatlıqları aradan qaldıracaq əsaslar gətirsin".

***İsmayıl***

# Səfirlik casus yuvasıdır

## Millət vəkilləri İranı Azərbaycana qarşı təxribatlara son qoymağa çağırıb



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclis İran parlamentinin aprelin 5-də bəyanat qəbul etməsini Azərbaycan dövlətinin daxili işinə müdaxilə kimi qiymətləndirib və cavab bəyanatı qəbul edib. Vurğulanıb ki, İran parlamentinin qərəzli bəyanatı Azərbaycana qarşı həyata keçirilən növbəti siyasi təxribatıdır:** "Təəssüf ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılmasına göz yuman, hətta təcavüzkara bir çox əməllərində dəstək verən İran İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımız düşmən əsarətindən azad edildikdən sonra Azərbaycana qarşı açıq fəaliyyətə keçib. Belə görünür ki, İran qüvvələrinin sərhəddə müntəzəm təlimlər keçirməsi, Azərbaycanın Tehran şəhərindəki səfirliyinə qarşı terror təxribatlarının həyata keçirilməsi, 10 minlərlə azərbaycanlının zorla qovulduğu Ermənistanın Qafan şəhərində İran konsulluğunun açılması, Təbrizdə Ermənistan baş konsulluğunun açılmasına razılıq verilməsi, Ermənistanla normallaşma mane olma cəhdləri və digər bədniyyətli əməllər eyni zəncirin həlqələridir".

### "İrandan ölkəmizi hədəf alan qərəzli fəaliyyətdən əl çəkməsini tələb edirik"

Bəyanatda qeyd olunub ki, İran xüsusi xidmət orqanlarının ölkəmizdə yaratdığı casus şəbəkəsinin ifşa edilməsi, Azərbaycanda yalan təbliğatla aldadılmış insanların radikal-dini ideyalar ətrafında birləşdirilməsi cəhdləri ciddi narahatlıq doğurur: "Azərbaycan dövlətinin İsraildə səfirlik açması, müstəqil dövlət kimi suveren hüquqdur və bununla bağlı qəbul edilən bəyanatla irəli sürülən əsassız ittihamlar qəbuledilməzdir. İsraildə Mərakeş, Çad, Bosniya-Herseqovina, Qazaxıstan, Özbəkistan, Türkiyə kimi müsəlman ölkələrin diplomatik nümayəndəlikləri fəaliyyət göstərir. Bu ölkələrin heç biri İranın Azərbaycana göstərdiyi qərəzli münasibətlərin şahidi olmayıb. Azərbaycan dövləti Fələstində də diplomatik nümayəndəlik açıb. Azərbaycan Fələstin məsələsi ilə bağlı daim həmrəylik göstərib, İsrail-Fələstin münaqişəsinin iki dövlət prinsipi əsasında həllini hər zaman dəstəkləyib və bu mövqeyini beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirib. Azərbaycan Milli Məclisi İran tərəfini Azərbaycana qarşı müntəzəm xarakter alan əməllərini qətiyyətlə pisləyir və rədd edir, ölkəmizi hədəf alan qərəzli fəaliyyətdən əl çəkməsini tələb edir".

### "Azərbaycan müstəqil dövlətdir və hansı dövlətlə necə münasibət qurması onun daxili işidir"

Milli Məclis sədri Sahibə Qafarova İran parlamentini Azərbaycana qarşı təxribatlara son qoymağa çağırıb. Spiker bildirib ki, İran Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış, Azərbaycanın sərvətlərini vəhşicəsinə talan etmiş Ermənistana bir dəfə də etiraz etməyib, hətta ona müxtəlif vasitələrlə dəstək verib: "İran bu gün Azərbaycan dövlətinin İsraildə səfirlik açmasından narahatdır. Hamı bilməlidir ki, Azərbaycan müstəqil dövlətdir və hansı dövlətlə necə münasibət qurması onun daxili işidir. Azərbaycanın suveren hüquqlarına qarışmağa heç kimin haqqı yoxdur. Biz İran parlamenti tərəfindən ölkəmizə qarşı irəli sürülmüş əsassız ittihamları qətiyyətlə rədd edirik, İran parlamentini Azərbaycana qarşı bu cür təxribatlara son qoymağa, ikitərəfli münasibətlərə xələl gətirə bilən hərəkətlərdən çəkinməyə çağırırıq". S.Qafarova əlavə edib ki, bəzi ölkələrdə müəyyən qüvvələr Azərbaycan torpaqlarının düşmən tapdağından azad edilməsi, tarixi ədalətin bərpa olunması ilə heç cür barışa bilmir: "Onlar ölkəmizə böhtanlar atır, bölgədə münaqişəni yenidən alovlandırmağa, Ermənistan və Azərbaycan arasında sülh yaradılması səylərini pozmağa çalışır".

### "İran dövləti və cəmiyyəti məkr, riyakarlıq və yalan prinsipi ilə yaşayır"

Milli Məclis sədrinin müavini Fəzail İbrahimli vurğulayıb ki, məkr, riyakarlıq və yalan üzərində yaşayan dövlətin və cəmiyyətin uğuru olmur: "İran adlanın məmləkətin siyasəti bu 3 tezis üzərində köklənib. Bugünkü çıxışım İranın parlament üzvlərinin qəbul etdiyi bəyanatla bağlıdır. Bəyanata baxanda, şər, böhtan və riyakarlıq görünür. Niyə ölkəmizin İsraildə səfirliyinin açılması bu qədər narahatlıq törədir və İran parlamenti səviyyəsində təhqir, şantaj formalı bəyanat qəbul edilir? 30 il işğal dövründə İran susdu. Maska nə vaxt cırıldı? Azərbaycan öz torpaqlarını işğaldan azad edəndən sonra. Bəyanatın sonunda bir ifadə var. "Böyük İslam İranının - guya bundan başqa İslam dövlətləri xırda dövlətlərdir - xalqının nümayəndələri Azərbaycan parlametindən gözləyir ki, buna cavab versin". Sən öz parlamentində ədalətsiz, riyakar anti-Azərbaycan addımı atacaqsan, belə hesab edəcəksən ki, bu düşüncə parlamentimizdə fikir ayrılığı yarada bilər? 44 günlük müharibə sübut etdi ki, xalqımız bütövdür, əyilməzdir".

### "Azərbaycanla sülh bağlamaq istədiyinə görə Paşinyanı devirməyə qalxanlardan biri də İran idi"

Deputat Zahid Oruc deyib ki, İran parlamentinin ölkəmizə qarşı bəyanatı son 3 ildə dini və hərbi rəhbərliyin hücumuna bütün dövlət hakimiyyətinin qoşulması deməkdir. İran-Azərbaycan münasibətləri 1991-93-cü illəri çıxsaq, ən aşağı səviyyəyə düşüb: "İran məclisi İslam Əməkdaşlığı Təşkilatına müraciət edir ki, ölkəmizin İsraillə münasibətlərinə mane olsun. Birincisi, məğlub Azərbaycan İran üçün təhlükəsiz idi, məğlub Azərbaycan onlara daha çox sərf edirdi. İkincisi, Zəngəzur dəhlizinin açılmasına Ermənistan razılıq vermişdi, iki dövlət təzyiq göstərəndən sonra imtina etdi. "Məni hansı aqibət gözləsə də, sülh müqaviləsini imzalayacam" deyən Paşinyanı devirməyə qalxanlardan biri də İran idi. Buna görə İran Paşinyana ultimatum verdi".

### "Biz İrana qarşı sanksiyalara qoşulmalı, anti-İran koalisiyası yaratmalıyıq"

Deputat Fəzail Ağamalı bildirib ki, İran dayanmayacaq: "Biz bütün beynəlxalq təşkilatlara İranın Azərbaycana qarşı təhdidlərini çatdırmalıyıq. Avropa, ABŞ-da və digər ölkələrdə İrana qarşı Azərbaycan diasporunun mitinqləri təşkil edilməlidir. Biz İrana qarşı sanksiyalarda iştirak etməli, anti-İran koalisiyası yaratmalıyıq".

Parlamentin Sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, İran parlamentinin Azərbaycanın İsraildə səfirlik açmasına etiraz bəyanatı qəbul etməsi heç bir siyasi və diplomatik etikaya sığmır: "Son vaxtlar İrandakı fars molla rejiminin ölkəmizə qarşı təxribatçı və düşmənçilik hərəkətlərinin davamlı şəkil alması qonşuluq münasibətlərini heçə endirir. Tehrandakı səfirliyimizə xain hücum, İran rəsmilərinin söylədiyi hədyanlar, İranın Ermənistanla münaqişənin həllində, xüsusi ilə Zəngəzur dəhlizi barəsində tutduğu destruktiv mövqe onu göstərir ki, bu dövlətin başında dayanan şovinist fars-molla rejimi xain və çirkin əməllərindən əl çəkmək niyyətində deyil. İran rejiminin bu mövqeyi bizi dövlətlərarası münasibətlərimizə yenidən baxmağa məcbur edir. Görəsən, İran siyasiləri fərqindədilərmi ki, ətraflarındakı heç bir müsəlman dövlətləri ilə dostluq münasibətləri yoxdur".

### "Dini inanclı insanlarımızın radikallaşdırılmasına aparan bütün yollar bağlanmalıdır"

Komitə sədri İranın Bakıdakı səfirliyinin bağlanılması ilə bağlı təklif irəli sürüb: "İran 30 il ərzində Qarabağda müsəlman qəbirlərinin dağılmasına biganə qaldı, məscidlərin dağıdılmasına, Allahın evində donuz saxlayanlara etiraz səsini qaldırmadı. Dünən İranın 4 nəfər diplomatı casusluq fəaliyyətinə görə "arzuolunmaz şəxs" elan edilib. Mən hesab edirəm ki, qalan əməkdaşları da rədd olub getməlidir və o səfirlik adlanan casus və intriqa yuvası bağlanmalıdır. Hesab edirəm ki, terrorçu-təxribatçı qrup və şəbəkə daha geniş şəkildə üzə çıxarılmalı, maliyyələşdirmə mənbələri, bütün əlaqələri, müxtəlif özəl və dövlət qurumlarına sızıntıları aşkarlanmalı və təhlükəsiz vəziyyətə gətirilməlidir. Dini inanclı insanlarımızın radikallaşdırılmasına aparan bütün yollar bağlanmalıdır. İran siyasiləri anlamalıdırlar ki, demokratik hüquqi suveren Azərbaycan dövlətini təhdid etmək fars molla rejiminin nə başı, nə əmmaməsi üçündür".

### "İran deputatları islamın düşməni ilə qucaqlaşıb öpüşür"

Deputat Azər Badamov deyib ki, İran islam dini pərdəsi altında özünün riyakar niyyətini reallaşdırmağa çalışır: "Belə olmasaydı, islam dininə yüksək dəyər verən Azərbaycana qarşı düşmənçilik siyasəti yürütməzdi. Əgər İran özünü İslam respublikası adlandırırsa, nə üçün islam dəyərlərini məhv edən Ermənistanın yanındadır və ona dəstək göstərir. İran Azərbaycana nəyi necə etməklə bağlı göstəriş verməsin. Ölkəmiz müstəqildir, dünyanın istənilən ölkəsi ilə milli maraqlara uyğun əməkdaşlıq qurur, diplomatik münasibətləri inkişaf etdirir. Yaxşı olardı ki, İran parlamenti özünün anti-islam və xəyanətkar əməllərindən əl çəksin. İran deputatları islam dininin düşməni olan Ermənistanla qucaqlaşıb öpüşməyin əvəzinə, Azərbaycanda islam dini dəyərlərinə qarşı törədilmiş terrora görə Ermənistanı qınamağa çağırış edən məsələni müzakirə etsin. O zaman müsəlman dünyası da İranın islam dini dəyərlərinə səmimi olduğunu görər".

### "İran min illik xasiyyətindən, xarakterindən yenə də əl çəkməyib"

Deputat Nizami Cəfərov bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü itirəndə də İranın mövqeyini bilirdik: "Bu barədə çox da dərinə getmək istəmirdik, çünki beynəlxalq münasibətlər var və əsas işimiz Ermənistanla idi. Amma görünür, İran min illik xasiyyətindən, xarakterindən yenə də əl çəkməyib. Necə ki, 7-ci əsrdən 20-ci əsrin əvvəllərinə qədər Azərbaycan xalqının hüquqlarını pozub, indi də həmin xüsusiyyətlərini də davam etdirir. İslam düşüncələri tarixində İran həmişə atəşpərəst olub. İran qədər islama xəyanət edən ikinci ölkə yoxdur. Onların düşüncəsində, təfəkküründə, hətta mədəniyyətlərində belə islam deyəndə Avestanı nəzərdə tuturlar. Bu yenə də davam edir, lakin prinsipial səhvlərə davam etməklə baş verir. Azərbaycan parlamentindən İran nə gözləyir?! Parlamentimiz dəfələrlə İrandakı Azərbaycan xalqına azadlıq, təhsil, məktəb istəyib. Baxın, biz sizdən bunu istəyirik".

### Sabir Rüstəmxanlı iki təkliflə çıxış edib

Millət vəkili Sabir Rüstəmxanlı da İranla bağlı önəmli təklif irəli sürüb. Deputat İran parlamentində Azərbaycanla bağlı qəbul edilən bəyanata görə İslam Təşkilatı Ölkələrinə müraciət məktubu göndərməyin vacibliyini vurğulayıb. O, həmçinin, İranda yaşayan 40 milyon azərbaycanlının taleyi ilə bağlı beynəlxalq təşkilatlara, BMT-yə, İnsan Haqları Komitəsinə müraciət ünvanlamağı təklif edib: "Qonşu ölkədə Azərbaycanın hüquqlarının tapdalanması və tarixi ədalətsizliklə bağlı məktub hazırlayaraq müzakirəyə çıxarılmasını təmin etməliyik". Parlament sədri Sahibə Qafarova da bu təklifi dəstəkləyib.

**İsmayıl Qocayev**



# Gürcüstanın Bakının ciddi dəstəyinə ehtiyacı var

## Qaribaşvilinin Azərbaycana işgüzar səfəri ölkəsinə qarşı xarici təzyiqlərin fonunda reallaşır

**Aprelin 7-də Prezident İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub. Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin olduğu qeyd edilib. Prezident İlham Əliyev keçən ilin oktyabrında Gürcüstana səfərini məmnunluqla xatırladıb və səfər zamanı aparılmış müzakirələrin əhəmiyyətini qeyd edib.**

Dövlət başçısı bu səfərlər çərçivəsində görüşlərin məhz regionlarda keçirilməsinin çox önəmli və vacib bir ənənə olduğunu bildirib. Söhbət zamanı Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi enerji, infrastruktur layihələrinin əhəmiyyəti vurğulanıb. Bu xüsusda ölkələrimizin birlikdə reallaşdırdıqları enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində böyük rol oynadığı və bu enerji resurslarına tələbatın artdığı qeyd olunub. Həmçinin yol-infrastruktur layihələrinin həyata keçirilməsinin önəmi vurğulanıb və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin genişləndirilməsi, onun imkanlarının artırılması istiqamətində birgə aparılan fəaliyyət xüsusi qeyd olunub. Azərbaycanın və Gürcüstanın Orta Dəhlizdə önəmli rolu, bu xüsusda birgə səylərin göstərilməsinin vacibliyi vurğulanıb. Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığı və bu istiqamətdə əlavə tədbirlərin görüldüyü bildirilib. Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Azərbaycan ilə Gürcüstan arasında humanitar, mədəniyyət, təhsil, müdafiə sənayesi, hərbi, təhlükəsizlik, kənd təsərrüfatı və digər sahələrdə də əməkdaşlıq məsələlərini müzakirə ediblər.

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Gürcüstan baş nazirinin Azərbaycana işgüzar səfəri əsasən, xarici təzyiqlərin fonunda reallaşır. Analitikin sözlərinə görə, son dönəmlər Gürcüstan hökumətinə qarşı ABŞ və Avropa İttifaqı sanksiyaları gündəmə gətirir:** "Bir neçə hakimə qarşı sanksiyalar tətbiq edilib. Gürcüstan xarici işlər naziri ABŞ Dövlət katibi Entoni Blinkenə məktub göndərərək sanksiyaların iki dost ölkə arasında münasibətlərin gərginləşməsinə səbəb olacağını vurğulayıb. Qərbdən Gürcüstana ciddi təzyiqlər formalaşır. Hətta yeni inqilabın baş verməsi də gündəmdədir. Demək olar ki, Gürcüstan rəsmiləri Qərbdə arzuolunmazdır. Ölkə parlamentində "xarici agentlər" haqqında qanunun qəbul edilməsi və sonradan geri götürülməsi Qərbdə "Gürcü Arzusu" hökumətinə qarşı mənfi siyasi çalarların formalaşmasına səbəb olub. Rəsmi Tbilisi Rusiyanın maraqları kontekstində siyasət aparılmasında ittiham edirlər. Həqiqətən, Gürcüstan hökuməti Qərblə əlaqələri aşağı səviyyəyə endirərək, Rusiya Ukrayna müharibəsində sual doğuran və neytrallıqdan əlavə, Moskvanın tərəfdaşı kimi hərəkət etdi".

**Ekspertə görə, Gürcüstan Qərblə Rusiyanın nüfuz uğrunda yenidən mübarizə mərkəzinə çevrilib:** "Azərbaycanın regionda həyata keçirdiyi unikal siyasət, Qərblə Prezident İlham Əliyevin münasibətlərinin yüksək olması İ.Qaribaşvilinin Azərbaycanın ciddi dəstəyinə ehtiyacı olduğunu göstərir. Azərbaycan Gürcüstanın yanında olub, daim dəstəyini ifadə edib. Qeyd edim ki, Gürcüstan Azərbaycan-Ermənistan arasında danışıqlar platforması ola bilər. Bu məsələ zamanla gündəliyə gətirilib. Qaribaşvilinin Nikol Paşinyanın hansısa xahişini Bakıya gətirməsi də istisna deyil. Bir sözlə, Cənubi Qafqazın hər iki ölkəsi - həm Gürcüstan, həm də Ermənistan Azərbaycandan asılı vəziyyətə gəlib".

**İsmayıl Qocayev**

# Heç 48 saat çəkmədi

## Qovulan iranlı diplomatlar Azərbaycanı tərk etdilər




**Azərbaycanın "arzuolunmaz şəxs" elan etdiyi İran səfirliyinin 4 əməkdaşı ailələri ilə birlikdə Biləsuvar gömrük-sərhəd buraxılış məntəqəsindən keçərək ölkələrinə yola düşüblər. Qeyd edək ki, aprelin 6-da İran səfirliyinin dörd əməkdaşı - Mirmahdi Mirsalampur, Şərif Qurbanəli, Purmərcan Varcovi, Hadı Moğadam, Əsgər Bahari Xoş Mənzər Azərbaycan hökuməti tərəfindən "persona non grata" elan edilib.**

### *Ekspertin fikrincə, rəsmi Bakı bununla mümkün təhlükəni neytrallaşdırır*

Bildirilib ki, müəyyən olunmuş şəxslər Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyət göstəriblər. O səbəbdən İran səfirliyindən həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb olunmuşdu.

**Siyasi şərhçi Asif Nərimanlı vurğulayıb ki, Bakıdakı səfirlik İranın Azərbaycan daxilində həyata keçirmək istədiyi planların mərkəzi rolunu oynaya bilər. Analitikin qənaətincə, istisna deyil ki, "arzuolunmaz şəxs" elan edilən 4 diplomatın bu addımları idarə edəcək fiqurlar olduğuna dair kəşfiyyat məlumatları olub:** "Ötən ilin noyabrında DTX-nin keçirdiyi əməliyyat da İran səfirliyinin bu kimi fəaliyyətinə dair faktları ortaya çıxardı. Rəsmi məlumatda bildirilirdi ki, "İran kəşfiyyatının azərbaycanlılardan ibarət yaratdığı silahlı qruplaşmanın üzvləri Azərbaycana lazım olan təbliğat vasitələrini çatdırmaq üçün İran səfirliyinin avtomobilindən istifadə ediblər". Bu fakt İranın Bakıdakı səfirliyi və əməkdaşlarının casusluq, eləcə də digər fəaliyyətlərdə mərkəz və icraçı rolunu oynayacağı ehtimalını artırır. İran şəbəkəsinə qarşı genişmiqyaslı əməliyyatlar onların əl-qolunu bağladığı üçün bu situasiyada diplomatik toxunulmazlığı olan səfirliyin daha "effektiv" fəaliyyət göstərmək imkanları var. Səfirliyin əməkdaşları İran şəbəkəsinin koordinasiya edilməsini, əlaqələrin qurulmasını təmin edə bilərlər. Diplomatik toxunulmazlığa görə yoxlanılmayan səfirlik avtomobillərindən casusların ölkədən çıxarılması, yaxud ölkəyə daxil edilməsi, o cümlədən, İran şəbəkəsinin təchizatının həyata keçirilməsi üçün istifadə oluna bilər. Bu təchizatın silah-sursat olması ehtimalı da istisna edilməməlidir. 4 iranlı diplomatın statuslarına uyğun olmayan fəaliyyətin bundan ibarət olduğu, eləcə də gələcəkdə eyni məqsədlə daha genişçaplı işlər görə biləcəyi üçün "persona-non-qrata" elan edildiyi versiyası ön plana çıxır".

Ekspertin fikrincə, rəsmi Bakı bununla mümkün təhlükəni neytrallaşdırır: "Bu addımın hazırkı səfirlə müqayisədə daha sərt mövqeyi ilə tanınan və fəaliyyətə başlayacağı təqdirdə Azərbaycanda "iğtişaş ssenariləri"ni tətbiq edə biləcəyi gözləntisi olan yeni səfirin gəlişindən öncə atılması da xüsusilə diqqət çəkir".

**İsmayıl Qocayev**

# "Narkotik qaçaqmalçılarını yerindəcə məhv etmək əmri verilib"

## DSX rəisinin müavini: "İran xüsusi xidmət orqanları Azərbaycana qarşı fəaliyyətində narkotik qaçaqmalçılığından istifadə edir"



**Dövlət Sərhəd Xidməti rəisinin əməliyyat-axtarış işi üzrə müavini, general-leytenant Firuz Şirinzadənin APA-ya müsahibəsi:**

**- Əldə etdiyimiz məlumata görə, ötən gecə İranla dövlət sərhədində atışma olub. Bu məlumat nə qədər doğrudur?**

- Demək olar ki, hər gün bu cür hallarla qarşılaşırıq. Bəli, dünən növbəti dəfə narkotik qaçaqmalçıları dövlət sərhədini pozmağa cəhd ediblər. Gecə saatlarında Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının "Horadiz" Sərhəd Dəstəsinin xidməti ərazisində narkotik vasitələrin ölkəyə gətirilməsinin qarşısı alınıb. Bir neçə nəfər sərhəd pozucusu ölkə ərazisinə keçmək istəyib, onlar sərhəd naryadının qanuni tələbinə tabe olmayıblar və sərhəd naryadına odlu silahdan atəş açıblar. Onlara qarşı silah tətbiq edilib, ərazinin mürəkkəb relyefli və havanın qaranlıq olmasından istifadə edən sərhəd pozucuları geri qaçıblar. Hadisə yerində isə onlara məxsus 63,5 kq narkotik vasitə aşkar olunub. Hazırda əməliyyat-axtarış tədbirləri davam etməkdədir.

**- Ümumiyyətlə, İrandan Azərbaycana qarşı narkotik terrorunun son zamanlar artması müşahidə olunur...**

- Əvvəla onu deyim ki, Azərbaycana narkotik vasitələr gətirməyə cəhd edən cinayətkarlara qarşı ən sərt tədbirlər həyata keçirilir. Sərhəd naryadlarına hər hansı silahlı müqavimət, yaxud qanuni tələbə tabe olmama halında narkotik qaçaqmalçılarını yerindəcə məhv etmək əmri verilib. Bu tədbirlər bundan sonra da tam qətiyyətlə davam edəcək.

O ki qaldı sizin də ifadə etdiyiniz kimi, İrandan narkotik terrorunun artmasına, bəli, statistika bu faktı təsdiqləyir. Son 5 ildə İran İslam Respublikasından Azərbaycana gətirilən narkotik vasitələrin həcmi 9 dəfə artıb. Belə ki, 2018-ci ildə 144,8 kq, 2022-ci ildə isə 1 ton 302 kq narkotik vasitə İİR ilə dövlət sərhədindən qanunsuz yolla gətirilərkən tərəfimizdən aşkarlanıb. Son 5 ildə narkotik qaçaqmalçılığına görə 55 İran vətəndaşı saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunub.

**- Statistikaya nəzər yetirəndə maraqlı fakt ortaya çıxır. Məhz 2022-ci ildə İrandan Azərbaycana narkotik qaçaqmalçılığı cəhdlərinin həddən çox artdığını göstərir. Sizcə, bunun səbəbi nədir?**

- Ümumiyyətlə, 2021-2022-ci illərdə Azərbaycan-İran dövlət sərhədində (yaşıl sərhəddə) tutulmuş qaçaqmalın ümumi kütləsi 2 ton 113,3 kq olub. 2018-2020-ci illərdə - yəni əvvəlki 3 il ərzində dövlət sərhədində cəmi 1 ton 222 kq narkotik vasitənin tutulduğunu nəzərə alsaq, rəqəmlərdə kəskin artımın olduğunu görə bilərik. Bu isə onu göstərir ki, Vətən müharibəsindən əvvəlki dövrdə narkotik qaçaqmalçılığının böyük hissəsi Azərbaycan-İran dövlət sərhədinin 132 km-lik işğal altında olan hissəsinin payına düşüb. Vətən müharibəsində əldə etdiyimiz böyük zəfərədək işğal altında olan sərhəd ərazilərimizdən kütləvi narkotrafik məqsədilə istifadə edilib. İrandan gətirilən narkotik vasitələr həmin ərazilərdən keçirilməklə Ermənistana daşınıb. Ermənistan ilə birgə həyata keçirilmiş bu fəaliyyətdən həm Ermənistan, həm də İİR böyük həcmdə cinayətkar gəlir əldə ediblər. Bu barədə ölkəmizin hüquq-mühafizə orqanları çoxsaylı faktlar müəyyən ediblər. Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan sərhədçilərinin böyük rəşadətlə, döyüşərək azad etdiyi İİR ilə dövlət sərhəd xətti üzərində nəzarətimizin bərpa edilməsi böyük bir regional narkotrafikin də qarşısının alınmasına öz töhfəsini vermişdir.

Xatırlatmaq yerinə düşər ki, ABŞ Dövlət Departamentinin narkotiklər üzərində beynəlxalq nəzarət strategiyası haqqında hesabatlarında da bu məqam dəfələrlə əks olunub. "Qara dəlik" kimi xarakterizə olunan bu narkotrafikdən əldə olunan böyük həcmli maliyyə vəsaitləri separatçı rejimin və Ermənistanın cinayətkar rəhbərliyinin şəxsi məqsədləri üçün sərf olunmaqla yanaşı, işğal altında olan ərazilərin azad olunmasını əngəlləmək məqsədilə silah-sursat alınması üçün də geniş istifadə olunub.

**- Mütəmadi olaraq narkotik qaçaqmalçılarının Azərbaycan sərhədçilərinə silahlı müqavimət göstərməsi barədə xəbərlər oxuyuruq...**

- Azərbaycan sərhədçiləri narkotik qaçaqmalçılarına qarşı ciddi və sərt tədbirlər görür. İrandan narkotik vasitələrin gətirilməsi ən müasir silahlar və xüsusi texniki avadanlıqlara (gecə görmə cihazları və s.) malik silahlı dəstələr tərəfindən müşayiət olunur. Təkcə son 5 ildə sərhədçilərə qarşı 27 dəfə silahlı müqavimət göstərilib. Bu hallarda sərhəd naryadlarının cavab atəşi ilə 15 qaçaqmalçı zərərsizləşdirilib, 5-i yaralanıb. Zərərsizləşdirlmiş şəxslərdən 13 nəfəri İran, 2 nəfəri Azərbaycan vətəndaşı olub. Bu əməliyyatlar zamanı bizim də itkilərimiz olub. Belə ki, 3 hərbi qulluqçumuz şəhid olub, 5 nəfər yaralanıb.

Bir daha vurğulayıram ki, sərhəd naryadlarına silahlı müqavimət göstərən, qanuni tələbə tabe olmayan sərhəd pozucularına qarşı ən sərt tədbirlərin görülməsi əmri verilib.

**- Ölkəmizə narkotik vasitələrin gətirilməsi cəhdlərinin arxasında başqa məqsədlərin də olması barədə fikirlər mövcuddur. Bu barədə nə deyə bilərsiniz?**

- Bu artıq təkzibolunmaz faktdır ki, İran İslam Respublikasının xüsusi xidmət orqanları Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş fəaliyyətində narkotik qaçaqmalçılığından da istifadə edir. Bu cinayətkar fəaliyyətə cəlb olunan şəxslərin sonradan müxtəlif yollarla xüsusi xidmət orqanlarının tapşırıqlarının yerinə yetirilməsinə məcbur edilməsi faktları da mövcuddur.

Burdakı digər mühüm məsələ isə faktiki olaraq Azərbaycan gənclərinə qarşı əvvəl də qeyd etdiyimiz kimi, narkotik terrorun həyata keçirilməsidir. Bu bir faktdır ki, İran hazırda Azərbaycana qarşı həm də narkotik terroru həyata keçirir. Azərbaycan gənclərinin narkotiklərə aludə edilməsi, xalqımızın gələcəyinə qarşı yönəlmiş təxribat xarakterli addımdır. Sxem çox aydındır, qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə narkotik vasitələr daşımaq, burda bu narkotik vasitələri satıb Azərbaycan gəncliyini zəhərləmək, əldə olunan vəsaitdən isə Azərbaycan dövlətçiliyinə qarşı təxribat xarakterli əməllərdə istifadə etmək. Lakin Dövlət Sərhəd Xidməti, həmçinin, ölkəmizin hüquq-mühafizə orqanları bu məkrli planları ifşa edərək, qarşısını alırlar.

**- Yeri gəlmişkən, Dövlət Sərhəd Xidməti digər hüquq-mühafizə orqanları ilə bu istiqamətdə əməkdaşlığı necə qurub.**

- Narkotik qaçaqmalçılığına qarşı mübarizə tədbirləri çərçivəsində Dövlət Sərhəd Xidməti tərəfindən baş prokurorluq, dövlət təhlükəsizliyi, daxili işlər və gömrük orqanları ilə ən yüksək səviyyədə qarşılıqlı faydalı əməkdaşlıq və effektiv məlumat mübadiləsi sistemi formalaşdırılıb.

Bu əməkdaşlığın effektivliyi isə narkotik vasitələrin saxlanılma hallarının aşkarlanması, dərindən araşdırılması və istintaqı nəticəsində cinayətkar fəaliyyətin digər iştirakçılarının müəyyən edilməsində, cinayətkar şəbəkələrin ifşa olunmasında özünü göstərməkdədir.



# Mətbuat Şurası ilə Mediasiya Şurası arasında Anlaşma Memorandumu imzalanıb

**Azərbaycan Mətbuat Şurası ilə Mediasiya Şurası arasında Anlaşma Memorandumu imzalanıb.**

Bu barədə "Şərq"ə Mətbuat Şurasından məlumat verilib.

Bildirilib ki, sənədə Mətbuat Şurasının sədri Rəşad Məcid və Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov imza atıblar.

Bununla bağlı Azərbaycan Mətbuat Şurasında hər iki qurumun təmsilçilərinin iştirakı ilə toplantı keçirilib.

Tədbiri giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid bildirib ki, rəhbərlik etdiyi qurumla Mediasiya Şurasını birləşdirən, müəyyən mənada, ortaq fəaliyyətini təsdiqləyən bir neçə məqam var. Bunlardan birincisi odur ki, hər iki qurum cəmiyyət yönümlüdür, barışdırıcı missiya daşıyır. Mətbuat Şurası media ilə ictimaiyyətin müxtəlif təbəqələrinə məxsus şəxslər arasında kompromis variantların axtarışını, Mediasiya Şurası isə ümumən, vətəndaşlar arasında mübahisəli vəziyyətlərin aradan qaldırılmasını hədəf seçib.

İkinci məqam hər iki qurumun məhkəmələrin yükünün azaldılmasına xidmət edən fəaliyyəti ilə bağlıdır. Məlumdur ki, Mətbuat Şurası yarananadək jurnalistlərin məhkəmələrlə üzləşməsi faktlarının statistikası həddən artıq yüksək idi. Həm məhkəmələr özləri yüklənirdi, həm də media qurumları üçün vaxt itkisi yaranırdı. Mətbuat Şurası fəaliyyətə başlayandan sonra kütləvi informasiya vasitələrinin və jurnalistlərin məhkəməyə verilməsi hallarında azalmalar müşahidə edildi. Cəmiyyət üzvləri daha çox Şuraya üz tutdular. Ümumən, media ilə bağlı məsələlərdə Mətbuat Şurasına müraciət ənənəsinin formalaşdığını vurğulayan R.Məcid hazırda Mediasiya Şurasının da məhkəmələrin yükünü azaltmaq missiyasını yerinə yetirdiyini deyib. O bildirib ki, bu, həm də vətəndaşların problemlərinin operativ aradan qalxmasına, cəmiyyətdə gərginlik hallarının azalmasına yönəlmiş mütərəqqi missiyasıdır. Şura sədri çıxışında, həmçinin, Mətbuat Şurası ilə Mediasiya Şurası arasında Anlaşma Memorandumunun olmasını sosial sifariş kimi dəyərləndirib, sənədin faydalı nəticələr verəcəyinə əminliyini ifadə edib.

Mətbuat Şurası ilə Mediasiya Şurası arasında Anlaşma Memorandumu mətninin hazırlanmasında iştirak etmiş MŞ İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli bildirib ki, ümumən, mediasiya anlayışının cəmiyyətdə təbliğinə ehtiyac var. O, Anlaşma Memorandumunun bu baxımdan faydalı nəticələr verəcəyinə inandığını deyib.

E.Mirzəbəyli eyni zamanda vurğulayıb ki, MŞ ayrı-ayrı qurumlarla qarşılıqlı fəaliyyətin koordinasiya olunması ilə bağlı sənədlər imzalayıb. Bu sənədlərdə həm jurnalistikanın çəkisini artırmaq, həm də ölkəmizdə qanunun aliliyinin təmin olunmasına, vətəndaş cəmiyyəti quruculuğunun dərinləşməsinə töhfə vermək məramı əsas götürülüb. İH üzvü Mediasiya Şurası ilə imzalanmış Anlaşma Memorandumunun da faydalarını məhz bu baxımdan əsaslandırıb.

Mediasiya Şurasının İdarə Heyətinin üzvü Nadir Adilov rəhbərlik etdiyi qurumun fəaliyyətindən geniş söz açıb. O bildirib ki, qısa müddətdə əldə edilmiş bütün uğurlarda media orqanlarının apardıqları təbliğatın böyük payı var. Bu təbliğat Mediasiya Şurasına inam və etimad formalaşdırmaq zəminində idi və xeyli müsbət nəticələr əldə etməyə imkan verdi.

N.Adilov vurğulayıb ki, Mediasiya Şurasının ötən il müxtəlif vətəndaşlar arasında barışıq yaratma göstəricisi 39 faiz olub. Bu isə əvvəlki hesabat ili ilə müqayisədə dəfələrlə çoxdur. Şuranın əsasən əmək, kommersiya, ailə-məişət məsələləri ilə əlaqədar mübahisələrin aradan qaldırılması istiqamətində çalışdığını diqqətə çatdıran İH sədri çıxışında, həmçinin, media təmsilçilərinin mediator fəaliyyəti göstərməsinin daha uğurlu nəticələr verdiyini bildirib.

# Çörəyin qiyməti yenidən ucuzlaşa bilər

## Hazırda dünya bazarında satışa kifayət qədər buğda çıxarılır və panika dövrü geridə qalıb



**Azərbaycanda martın 11-dən etibarən iri market şəbəkələrində 650 qramlıq dairəvi (zavod) çörəyin qiyməti 70 qəpikdən 65 qəpiyə düşüb. Eyni zamanda un bazarında isə 50 kq-lıq bir kisə unun topdansatış qiyməti 9 mart 2023-cü il tarixində 35,5 manat - 37,2 manat olub. 2022-ci ilin avqust ayında bu göstərici 40,7 manat - 41,5 manat təşkil edirdi.**

Aprelin 10-dan etibarən Gürcüstanda da çörəyin 10 tetri ucuzlaşması ilə bağlı qərar qəbul olunub. Bu qərardan sonra Azərbaycanda çörəyin yenidən ucuzlaşması ehtimalı yaranıb.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Fuad İbrahimov bildirib ki, dünya bazarında buğda qiymətlərinin bahalaşmasının əsas səbəbi Rusiya və Ukrayna arasında gedən müharibə idi:** "Hər iki dövlətin bazarda əsas buğda ixracatçıları olduğunu nəzərə alsaq, müharibənin başlanğıcında bu vəziyyət dünya bazarında panika yaratmışdı və buğda qiymətlərində sıçrayış yaranmışdı. Lakin daha sonralar bu məsələ nəzarət altına alındığı üçün ucuzlaşma prosesinə keçid baş verdi. Bunun nəticəsi kimi biz ölkə ərazisində mart ayının ortalarında çörəyin qiymətinin 5 qəpik ucuzlaşmasının şahidi olduq".

*Ekspert vurğulayıb ki, ölkədə çörəyin yenidən ucuzlaşması baş verə bilər. Çünki hazırda dünya bazarında satışa kifayət qədər buğda çıxarılır və panika dövrü geridə qalıb:* "Əlbəttə ki, proses belə davam edərsə, çörəyin qiymətinin daha da ucuzlaşmasını görə biləcəyik. Lakin dünya bazarında buğdanın qiymətlərində yenidən dalğalanma baş versə və qiymətlərdə artım müşahidə olunarsa, o zaman ucuzlaşmadan söhbət gedə bilməz".

**Nihad Kərimli**

# Devirmək istəyirlər

## Baş nazirin Putinə zəngi təsadüfi deyil



***Ermənistanda baş nazirə qarşı etirazların təlimatının Moskvadan gəldiyi hər kəsə məlumdur***

**Rusiya Prezidenti Vladimir Putinlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. Ermənistan tərəfinin təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı Qarabağ ətrafında mövcud vəziyyətin müxtəlif aspektlərinin müzakirəsi davam etdirilib:** "Bu kontekstdə Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında 2020-2022-ci illərdə əsas sazişlərin ardıcıl şəkildə həyata keçirilməsinin, o cümlədən Ermənistan-Azərbaycan sərhədində təhlükəsizliyin və sabitliyin təmin edilməsi, Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması ilə bağlı məsələlərin vacibliyi bir daha təsdiqlənib. Bundan əlavə, danışıqlar zamanı ikitərəfli münasibətlərin bəzi aktual məsələlərinə toxunulub. Ekspertlərə görə, son günlər İrəvan-Moskva arasında yaşanan gərginlik, o cümlədən Ermənistanda hökumətə qarşı baş verən etirazlar fonunda Paşinyanın Kreml rəhbərinə zəngi təsadüfi, yəni sıradan telefon əlaqəsi deyil. Çünki Ermənistanda baş nazirə qarşı etirazlarla bağlı təlimatın Moskvadan gəldiyi iddia olunurdu.

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Putin-Paşinyan danışıqları barədə mətbuata verilən rəsmi məlumatda həmişəki kimi eyni sözlər, fikirlər səsləndirilib, görüşlərin xronologiyası yada salınıb. Elə fikir yaranır ki, guya, Rusiya məsələnin həll olunmasını istəyir, amma Ermənistan buna mane olur:** "Əlbəttə, belə görüşlərin hansısa nəticə verəcəyinə inanmaq sadəlövhlükdür. Görünən odur ki, Ermənistan hökumətinə qarşı etirazların Moskvadan qaynaqlandığı hamı kimi Paşinyana da məlumdur. Paşinyan da Putinə zəng etməklə ondan nə istədiyini, daha doğrusu, nə etməli olduğunu soruşub ki, Kremlin baş nazirlə işi olmasın. Baş nazirin Putinə zəngi göstərir ki, etirazlardan ciddi narahat olub. Məsələ ondadır ki, son günlər Qərbin vasitəçiliyi ilə Azərbaycanla sülh məsələsində ciddi addımların atılacağı barədə xəbərləri yayılır. Sərhəddə yüksək çinli zabitlərin görüşü keçirilib. Ermənistandakı etirazların bununla bağlı olduğu deyilir. Kreml Azərbaycan və Ermənistan arasında sülhdə maraqlı deyil. Xüsusən də, Qərbin vasitəçiliyi ilə bunu heç istəmir. Böyük ehtimalla, həmişəki kimi yenə də Putinə narahatlığa əsas olmadığını, Azərbaycanla sülh məsələsinin gələcəyin işi olduğunu, hətta onun hakimiyyəti dövründə heç mümkün olmayacağını bildirib. Əgər İrəvanda etirazlar səngiyərsə, deməli, məsələ həllini tapıb. Paşinyan iki stulda oturmağa davam edəcək. Həm Qərbin, həm də Rusiyanın əlinə oynayacaq. Fikrimcə, Türkiyədəki seçkilərin nəticəsi bəlli olduqdan sonra Ermənistanla sülh məsələsi dəqiqləşəcək".

**İsmayıl Qocayev**

# Rayonlarda vətəndaşlar narazıdır

## Musa Qasımlı Yardımlının dərdlərini sadaladı



**"Vətəndaşların rifah halının yaxşılaşdırılması üçün prezident vəsait ayırır, amma bəzən işlər yerlərdə uğurla icra edilmir, nəticədə vətəndaşlar narazı qalır".**

Bu sözləri millət vəkili Musa Qasımlı parlamentin dünənki iclasında səsləndirib. Deputatın sözlərinə görə, insanlar müraciətlərini Milli Məclisin kürsüsündən səsləndirməyi xahiş edirlər: "Yardımlının suya kəskin ehtiyacı olan bir neçə kəndinə əvvəllər Sineyir bulağından su çəkildi. İyun ayından başlayaraq oktyabr ayının əvvəllərinə qədər kəndlərə su çatmır və sakinlər də narazılıq edirlər, şikayət məktubları göndərirlər. Rayonun Dağüzü və Qaraqaya kəndlərinin yaxınlığında sıldırım qayalıqlar arasında axan şirin sulu çayların birində bənd tikilsə idi, bəlkə bir az çox xərc gedərdi. Amma su öz axarı ilə bütün kəndlərə gedib çıxar və problemlər də yaranmazdı. Digər bir məsələ yenə cənab Prezidentin sərəncamı ilə suya kəskin ehtiyacı olan Mirimli kəndində sakinlərin rifahını yaxşılaşdırmaq üçün subartezian su quyusu qazıldı. Lakin indiyə qədər kənd sakinlərinin şikayətlərinin ardı-arası kəsilmir. Yaxşı olar ki, bu məsələlərlə bilavasitə məşğul olan müvafiq yerli qurumlar problemin mahiyyətini öyrənib həll etsinlər".

**İsmayıl**



# "Mənə güllə atanlar vətən xainləridir"

## Fazil Mustafa: "Bu kəsim sabah Azərbaycanın bütün dəyərli insanlarına qarşı çevrilə bilərlər"

**Bir neçə gün əvvəl yaşadığı evin qarşısında silahlı hücuma məruz qalan deputat Fazil Mustafa hadisədən sonra ilk dəfə geniş açıqlama verib.**

Üzləşdiyi terror hücumu ilə bağlı "Real TV"yə danışan millət vəkili ilk günlərə nisbətən artıq özünü yaxşı hiss etdiyini deyib: "Yaralarım həkimlər tərəfindən müalicə olunur. Avtomatın güllə yarası olduğu üçün hələ ki tikiş qoymaq mümkün deyil. Çiynimdən aldığım yara sümükdə də ciddi fəsadlar yaratdığından qolumu qaldıra bilmirəm. Ona görə də, artıq sol əlimlə işləməyi məşq edirəm. Ümid edirəm ki, gələcəkdə fizioterapiya ilə sağ qolumun hərəkəti bərpa olunacaq. Ayağımdakı yaranın isə yeriməyim üçün bir maneə olmayacağını deyirlər. Güllə dizdən yuxarıya dəydiyi üçün diz qapağımı yox, bud hissəmi deşib keçib. Güllə yarasından əlavə bədənimdə dəmir və şüşə qırıntıları olduğu üçün onların da təmizlənməsi vaxt aparacaq".

F.Mustafanın sözlərinə görə, hadisə günü dostları ilə birgə restoranda iftar edib. Terror aktı restorandan çıxıb evə gələn zaman baş verib. Həmin vaxt maşını Fazil Mustafa özü idarə edib.

"Evə yaxınlaşarkən şübhəli məqam hiss etmədim. Bizim darvaza pultla açılır. Evə yaxınlaşana yaxın pultu basdım. Dedim, qapı açılana qədər qardaşıma zəng edim. Evə gəlməyimin səbəbi o idi ki, axşam namazını evdə qılım. Qapını pultla açdım, bu vaxt telefonu əlimə götürəndə dəhşətli parıltı gördüm. Bunun avtomat olduğunu düşünmədim, elə bildim telefonum partladı. Deməli, güllə maşının qapısından keçib ayağıma dəyib. Birdən ağlıma gəldi ki, mənə atəş açırlar. İkinci atəş maşının içində çiynimi tutdu. Darvaza bağlı olsaydı, sürüb geri gedəcəkdim. Amma sui-qəsdi törədənlərin neçə nəfər olduğunu bilmirdim. Maşının qapısını açıb əyilərək evə doğru qaçdım. Yoldaşım qapını açanda dedim ki, məni vurdular, qapını bağlayın. Gözüm kamerada idi ki, görüm onlar mənim arxamca gələcəklər, yoxsa yox. Onların evə hücum edib-etməyəcəyini bilmirdim. Çünki darvaza açıq idi. Maşının qapısı da açıq idi, kimsə sürüb gedə də bilərdi. Yoldaşım pultu tapıb darvazanı bağladı. Xəstəxanaya gələnə qədər huşum özümdə idi, özümü itirməmişdim. Özüm 102-yə zəng etdim ki, mən filankəsəm, mənə qarşı sui-qəsd olub".

***"Yaram ağrıyanda Xudayarın təsnifini dinləyirdim. Düşünürdüm ki, onların çəkdiyi ağrıların yanında bizim çəkdiklərimiz çox kiçikdir"***

O bildirib ki, sonra mülki geyimdə polislər gəldi. Ondan sonra hər tərəfə məlumat verilib.

Deputat yaşadığı sui-qəsd olayı və İranla bağlı diqqətçəkən fikirlər səsləndirib: "Ölkəmiz üçün ən böyük təhlükə "cəhalət kolonu"dur. Bu kolonun üzvləri əvvəl-axır dövlət müstəqilliymiz üçün böyük bir problem yaratmağa çalışacaqlar. İndidən onlara qarşı ciddi mübarizə aparılmalı və zərərsizləşdirilməlidir. Bu gün tam əminəm ki, mənə güllə atan adam rahatlıqla anasına da, atasına da güllə atar. Bu, zombiləşmiş bir kəsimdir. Bunun adı nə şiədir, nə sünnidir. Bunlar bütövlükdə bir vətən xainidirlər. Bunlar dindar deyillər. Bir dindar Ramazan ayında kiməsə güllə atar? Bu kəsim sabah Azərbaycanın bütün dəyərli insanlarına qarşı çevrilə bilərlər. Bu baxımdan hesab edirəm ki, bu təhdidlərin mənbəyi qonşu ölkədə olan, bu gün də burada kifayət qədər şəbəkələşmiş fəaliyyət göstərən qüvvələrdir" .

"Düşmən ayaqdadır. Düşmən istədiyi təxribatı törədə bilir. Burada əsas problem cəmiyyətin həssaslığı, səfərbər olunması məsələsidir. Hər birimiz öz dövlətimizə nemət kimi baxmalıyıq. Biz əvvəlcə dövlətimizə nemət kimi baxmalıyıq ki, sonrasında öz payımıza nə düşməsi barədə müzakirələr apara bilək. Qarabağ ağrımız hələ tam bitməyib. Bir-iki yerimiz hələ də qanayır.

Yaramız tam sağalana kimi cəmiyyət özünü səngərdə hiss etməlidir. Bu dəqiqə mən özümü səngərdə hiss edirəm. Yaram ağrıyanda Xudayarın təsnifini dinləyirdim. Və düşünürdüm ki, onların çəkdiyi ağrıların yanında bizim çəkdiklərimiz çox kiçikdir" - deyə deputat əlavə edib.

*Qeyd edək ki, xüsusi xarakteri nəzərə alınaraq təhlükəsizlik orqanı tərəfindən məsələnin kompleks nəzarətə götürülməsi ilə əlaqədar hadisə aydınlaşdırılana və cinayətkar şəbəkə tam işfa olunub zərərsizləşdirilənədək şəxsi təhlükəsizliyinin təminatı kimi Fazil Mustafa ilk gündən DTX-nin Hospitalına köçürülüb.*

**Şəymən**

# Regionda vəziyyət heç də ürəkaçan deyil

## Nazirlər Cənubi Qafqazdakı son prosesləri müzakirə ediblər

**Türkiyədə səfərdə olan Rusiya xarici işlər naziri Sergey Lavrovun türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə Ankarada görüşü başa çatıb. Görüşdən sonra nazirlərin mətbuat konfransı başlayıb. Mətbuat konfransı zamanı Çavuşoğlu bildirib ki, istəkləri tezliklə Azərbaycan və Ermənistan arasında əhatəli sülh sazişinin imzalanmasıdır:**

"Biz Rusiya ilə məsləhətləşmələri davam etdirəcəyik", - deyə o əlavə edib.

Qeyd edək ki, S.Lavrov Türkiyədə iki günlük səfərdədir.



**Səfəri "Şərq"ə dəyərləndirən AĞ Partiya sözçüsü, siyasi şərhçi Cavanşir Abbaslı söyləyib ki, Lavrovun Türkiyə səfərində əsas müzakirə mövzusu Rusiya-Ukrayna savaşındakı son vəziyyətlə bağlıdır:** "Yaxın günlərdə Çavuşoğlu da Rusiya və Ukraynanın genişmiqyaslı əməliyyatlara başlayacağı barəsində açıqlama verib. NATO-nun ikinci böyük ölkəsi olan Türkiyə XİN başçısının bu açıqlaması isə diqqətdən kənar qalmamalıdır. Bu açıqlamalardan sonra Lavrovun Türkiyəyə səfər etməsi, məhz genişmiqyaslı hərbi əməliyyatların qarşısını almağa hesablanıb. Biz mətbuat konfransından sonra hansı məsələlərin müzakirə olunduğunu görəcəyik. Hətta Lavrovun ardınca Ukrayna xarici işlər nazirinin də Türkiyəyə səfəri olarsa, təəccüblənməməliyik. Çünki Türkiyə Rusiya və Ukrayna arasındakı savaşda, sülh əldə ediləcəyinə inanılan bir ölkədir. Hətta bu savaşda əsas söz sahibi olan dünyanın aparıcı dövlətləri belə, danışıqlarda əsas fiqur kimi Türkiyəni görürlər".

*Analitik qeyd edib ki, görüş zamanı Cənubi Qafqazdakı vəziyyət də əsas müzakirə predmetlərindən biridir:* "Çünki regionda olan vəziyyət heç də ürəkaçan deyil. Xüsusən də Rusiya üçün. Həmçinin qardaş Türkiyənin də Cənubi Qafqaz barəsində planları var və regionda söz sahibi olmaq üçün gedən proseslərdə ön sırada yer alır. İkinci Qarabağ müharibəsindəki mövqeyindən sonra rəsmi Ankaranın regiondakı təsir gücü artıb.

Bu səbəblə də, ikitərəfli görüşdə Qarabağdakı proseslər və Laçın yolundakı son vəziyyət barəsində də fikir mübadiləsinin aparılacağı istisna deyil. Çünki Qarabağdakı proseslərə qardaş Türkiyə və Azərbaycanın mövqeyi eynidir. Biz buna həm Prezident İlham Əliyevin, həm də Rəcəb Tayyib Ərdoğanın açıqlamalarında şahid olmuşuq. Ümumiyyətlə, Türkiyə və Azərbaycan hər zaman biri-birinin mövqelərini müdafiə edir.

Həmçinin şübhəsiz ki, Ermənistanın regiondakı məlum siyasəti də XİN rəhbərləri tərəfindən götür-qoy ediləcək. Ümumiyyətlə, bu görüşdən sonra Qarabağ ətrafındakı proseslərdə Azərbaycanın xeyrinə hansısa gəlişmələr ola bilər. Çünki Çavuşoğlu Azərbaycanın maraqlarını sona qədər müdafiə edəcək.

Eyni zamanda nəzərə alsaq ki, son vaxtlarda Rusiya və Ermənistan arasındakı münasibətlərdə müəyyən çatlar əmələ gəlib. Hətta Paşinyan Qərbə meyillənir və Rusiyadan asılılıqdan qurtulmağa can atır. Bu fonda Lavrovun görüşdə Ermənistanın mövqeyini tam şəkildə müdafiə etməyəcəyini deyə bilərik".

**Həmsöhbətimizin sözlərinə görə, görüşdə İran və Azərbaycan arasındakı gərginlikdən də söz açılacağı istisna deyil:** "Təbii ki, burada Lavrov İrandan yana çıxış edəcək. Çavuşoğlu isə Azərbaycanın maraqlarının müdafiəsinə çalışacaq. Azərbaycan və İran arasındakı gərginlik müzakirədə ilk üçlükdə olan mövzulardan biri hesab edilə bilər. Tehrandakı səfirliyimizə hücum, şəhərin mərkəzində baş verən atışma və azərbaycanlı deputata qarşı sui-qəsd cəhdi Çavuşoğlu ilə Lavrov tərəfindən danışıqlar masasına yatırılacaq. Bəlkə də, tərəflər Azərbaycan və İranın bir araya gələrək münasibətlərini düzəltməsi üçün müzakirə aparacaq və ondan sonra təkliflərini hər iki tərəfə də göndərəcəklər".

**Nihat Müzəffər**



# Siyahıdan çıxarıldı

## ABŞ Ermənistanı etibarsız dövlət kimi qəbul edir

**Avropanın 10 ölkəsini əhatə edəcək "Defender 23" hərbi təlimlərinin iştirakçıları siyahısından Ermənistan çıxarılıb. ABŞ Müdafiə Nazirliyinin yenilənmiş siyahısında Ermənistanın adına rast gəlinmir.**

Bildirilir ki, ABŞ-la yanaşı, Albaniya, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Çexiya, Danimarka, Estoniya, Fransa, Gürcüstan, Almaniya, Yunanıstan, Macarıstan, İtaliya, Kosovo, Moldova, Monteneqro, Hollandiya, Şimali Makedoniya, Polşa, Rumıniya, Sloveniya, İspaniya, İsveç və Böyük Britaniyadan olan hərbçilər təlimlərdə iştirak edəcək.

Qeyd edək ki, təlimlər 22 apreldə başlayacaq və 2 ay davam edəcək.

22 apreldə başlayacaq təlimlərdə Ermənistanın gözlənilmədən siyahıdan çıxarılması böyük maraq doğurub.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən keçmiş dövlət müşaviri, politoloq Qabil Hüseynli bildirib ki, bunu təbii qarşılamaq lazımdır. Ermənistanın son zamanlar yeritdiyi xarici siyasət ABŞ-ın bu addımı atmasına səbəb olub:** "Bildiyimiz kimi, hərbi təlimin əsas təşkilatçısı vəzifəsini ABŞ öz üzərinə götürmüşdü. Ermənistan hökumətinin son dövrlər yeritdiyi xarici siyasətin ABŞ-ın və təlimin digər iştirakçı dövlətlərinin məqsədlərinə ziddiyyət təşkil etməsi, onların bu təlimlərdən kənarda qalmasına gətirib çıxardı".

"Ermənistan və Rusiyanın bir-biri ilə qırılmaz tellərlə bağlılığı artıq bütün dünyaya məlumdur. Ermənistan və Rusiya ordularının birgə əməliyyat və təlimlərə cəlb olunması ilə bağlı 50 illik siyasi ittifaqlıq müqaviləsi mövcuddur. Bu müqavilə Qarabağ döyüşləri ərəfəsində bağlanmışdı. Rusiya hazırda dünya ölkələri, eləcə də keçiriləcək təlimin iştirakçı dövlətləri tərəfindən etibarsız bir partnyor, aqressiv bir dövlət olaraq qəbul edilir. Ermənistanın isə Rusiya ilə olan çoxşaxəli əlaqələrini nəzərə aldıqda, digər yandan son dövrlər İranın təkidi ilə bir sıra iqtisadi xarakterli layihələrin qarşısının alınmasında iştirakı Ermənistanın bu siyahıdan çıxarılması ilə nəticələnib", - deyə politoloq bildirib.

**Nihad Kərimli**

# Çox ciddi qiymət artımı olacaq

## Deputat Vahid Əhmədov qanun layihəsini tənqid edib

**Dünən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib. İclasda "Elektroenergetika haqqında" qanun layihəsi müzakirə olunub. Çıxış edən millət vəkilləri tənqidi fikirlər səsləndiriblər. Deputat Vahid Əhmədov qanun layihəsini tənqid edib: "Pərviz Şahbazovun (energetika naziri - red.) sözü ilə razı deyiləm ki, "Elektroenergetika haqqında" qanun layihəsinin qəbulundan sonra qiymət artımı olmayacaq.**



Xeyr, çox ciddi qiymət artımı olacaq. Bu qanun sosial, siyasi qanundur. Burada 3 mərhələ nəzərdə tutulur. Birinci, 2025-ə qədər iki seçki nəzərdə tutulur - Parlament və Prezident seçkiləri. Belə bir qanun layihəsi ilə seçkilərə getmək mənfi amillərə səbəb ola bilər. Ona görə də təklif etdik ki, bu mərhələləri dəyişmək lazımdır. Qanunun 2025-ci ildən sonra deyil, 2027-2028-ci ildən tətbiqinə başlayaq. Dedik ki, gəlin pilot layihələr keçirək, rentabelliyini görək. Kim deyirsə, bu tariflərə təsir etməyəcək, mümkün olan şey deyil. Şirkət investisiya qoyursa, orada qiymət dəyişikliyi olacaq. Gəlin, bu qanun layihəsini işləyək. Bunu 3-cü oxunuşa çıxarmaq olmaz. Siz bizə sürpriz hazırlamayın. Saxlayın bu qanun layihəsini, bizim sürprizə ehtiyacımız yoxdur".

### "Elektroenergetika sahəsi dövlətin nəzarətində qalmalıdır"

Deputat Fəzail Ağamalı bildirib ki, bu, strateji sahədir. Burada millət vəkillərinə təqdim olunmuş layihəyə üzdən münasibət bildirilməsi çox ciddi, xoşagəlməz nəticələr verə bilər: "Elə sahələr var ki, onlar birmənalı şəkildə dövlətin nəzarətində olmalıdır: su, neft, elektroenergetika. Bu gün "Azərişıq" istehlakçıları elektrik enerjisi ilə yüksək səviyyədə təmin edir. Satışda da hər hansı bir problem yoxdur. Satır, pulunu yığır və büdcəyə vəsait ödəyir. Pərviz müəllimin dedikləri qiymət artımının olmamasına təminat verə bilməz. Pul qoyan şirkət vəsaitin götürmək istəyəcək. Biz buna mane ola bilməyəcəyik. Bu strateji sahələr dövlətin nəzarətində olmalıdır. Bu məsələdə tələsmək olmaz, yenidən dinləmələr keçirək. İşğaldan azad olunan rayonlarda elektrikləşmə tam başa çatmalıdır. Bu məsələyə 2030-cu ildən sonra baxmaq olar".

### "Hamımız "Barmek" və "Bayva"nı çox yaxşı xatırlayırıq"

Deputat Qənirə Paşayeva deyib ki, zamanında bəzi qurumlarımızın "fəaliyyəti" nəticəsində həyata keçirilən bəzi məsələlər, layihələr elə vəziyyətlə üzləşdi ki, insanlar onların təkrarlanmasından qorxur: "Hamımız "Barmek" və "Bayva"nı çox yaxşı xatırlayırıq. Həmin şirkətlər xeyli vəsait yığıb ölkədən getdi, amma heç bir investisiya qoymadı. Burada sual meydana çıxır ki, bu işə nəzarət edən qurumlar nəyə baxırdı, hara baxırdı? Axı onların vəzifəsi bu işləri tənzimləmək idi. Qurumlar bunun məsuliyyətini sonra daşıdılarmı? Əgər daşımadılarsa, kim cavab verə bilər ki, sabah eyni şeylər yaşanmayacaq? Bizim buna zəmanətimiz varmı? Qurumların maraq savaşının qurbanı insanlar oldu. Bəzi məmurların maraqlarının əziyyətini insanlar, dövlət çəkdi. Bizə zəmanət veriləcəkmi? Bu gün bölgələrdə onsuz da xeyli problemlərlə üzləşirik. Məlum olur ki, insanlara artıq elektrik sərfiyyatı yazılır. Əslində, bu islahatlar ciddi araşdırılmalı, tənzimləmə qaydaları dəqiq olmalı, insanlara bunun açıqlaması verilməlidir. Səhvlərimizi etiraf etməkdən çəkinməməliyik".

### "Liberallaşmaya milyardlarla pul alıb, səmərəsiz istifadə edən sahələrdən başlamaq lazımdır"

Millət vəkili Qüdrət Həsənquliyev bəyan edib ki, liberallaşmaya milyardlarla pul alıb, səmərəsiz istifadə edən sahələrdən başlamaq lazımdır: "Bazarda liberallaşdırmanın tərəfdarıyam. Rəqabətin olması üçün inhisarçılıq aradan qaldırılmalıdır. İlk növbədə, dövlət inhisarçılığı olmamalıdır. El arasında bir söz var ki, "Südverən inəyi satmazlar". Siz niyə gəlirlə işləyən sahədə liberallaşmaya başlayırsınız? Axı bizdə "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərsu" ASC var... Hər yerdə ilk növbədə gəlirlə işləməyən sahələr liberallaşmaya çıxarılır. Dünyanın hər yerində özəlləşməyə oradan başlanılır. Belə çıxır ki, özəlləşmədə məqsəd o sahədə xidmətin keyfiyyətini yüksəltmək, rəqabət mühiti yaratmaqla tarifləri salmaq yox, gəlirli sahəni ələ keçirməkdir. Ümumiyyətlə, özəlləşməyə başlanılmalıdır. İlk növbədə isə milyardlarla pul alıb, səmərəsiz istifadə edən sahələrdən başlamaq lazımdır. Baxın, AZAL-da qiymətlər hara çıxıb? Xalqımız tələb edir qiymətlər aşağı salınsın, amma rəqabət mühiti olmadığı üçün sözsüz ki, qiymətlər düşmür. Baxın Gürcüstanda, Ermənistanda təyyarə biletlərinin qiymətlərinə. Balaca Ermənistanda 6-7 aviakompaniya var".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-Kütləvi, Mədəni-Maarif, Təhsil Proqramlarının Hazırlanması**



# Tələbələri təhsildən sonrakı mərhələyə hazırlamaq vacibdir

## Ali təhsil müəssisələrinin müxtəlif qurumlarla əməkdaşlığa meyilli olması müsbət addımdır

**Ali təhsil müəssisələri ilə dövlət qurumları, müxtəlif şirkət, holdinq və korporasiyalar arasında əməkdaşlıq memorandumu imzalanması son zamanlar müsbət tendensiyaya çevrilib. Bu, ali təhsil müəssisəsi tələbələrinin nəzəri biliklərlə yanaşı, təcrübə də keçməsi, müasir peşə və ixtisaslar barədə məlumatlı olub, bu sahələrdə bilik və bacarıqlara yiyələnməsi, təhsildən sonrakı mərhələdə isə ixtisasa uyğun iş tapmaları və karyera pilləsində irəliləmələrinə imkan yaradır. Belə əməkdaşlıq memorandumlarından biri bu günlərdə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası arasında imzalanıb.**

ADNSU-nin rektoru, professor Mustafa Babanlı Assosiasiyanın sədri Elvin Abbasov və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə həmçinin ADNSU-nun professor müəllim heyəti və tələbələr iştirak ediblər. Qonaqları salamlayan rektor, professor Mustafa Babanlı universitetdə mövcud olan təhsil və tədris prosesindən danışaraq müasir texnologiyanın tədrisdə geniş tətbiqindən söz açıb. Mühəndis kadrlar hazırlayan bir təhsil müəssisəsi üçün İT biliklərin vacibliyini qeyd edən rektor, professor Mustafa Babanlı universitetdə bu istiqamətdə fəaliyyət göstərən xüsusi kursların olduğunu deyib. Qonaqların diqqətinə çatdırılıb ki, bu gün ADNSU-da tələbələrə təkcə təhsil aldığı ixtisas üzrə bilik verilmir. Onlar müasir çağırışlara uyğun hərtərəfli mütəxəssis kimi yetişdirilirlər. Tədrisin və təhsilin yüksəldilməsi, peşəkar mühəndis kadrların formalaşması üçün müasir texnologiya və metodologiyanın tədris prosesinə tətbiq edilməsi, həmçinin xarici dil bilgilərinin inkişafı diqqətdə saxlanılır. İT sahəsində kifayət qədər peşəkar mütəxəssislərin fəaliyyət göstərdiyi Assosiasiya ilə əməkdaşlıqdan danışan rektor, professor Mustafa Babanlı bu əməkdaşlığın yüksək səmərə verəcəyinə ümidvar olduğunu bildirib. Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının sədri Elvin Abbasov ADNSU ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib və qeyd edib ki, bu əməkdaşlıq tələbələr üçün təcrübə imkanlarının genişlənməsində və işlə təminolunmada da özünü göstərəcək. O əlavə edib ki, bu gün müsbət nəticə üçün İT biliklərinin olması zərurətə çevrilsə də, elmi baza biliyinin olması vacibdir və biz ADNSU tələbələrində bu fundamental bazanı bilib uğurlu nəticə əldə olacağına inanırıq. Assosiasiyanın mütəxəssisləri çıxışlarında istehsalat müəssisələrində, o cümlədən elmin müxtəlif sahələrində çevik inkişaf və rəqabət aparmaq üçün müasir informasiya texnologiyalarından düzgün istifadənin vacibliyini bildiriblər. Qeyd ediblər ki, rəqəmsal idarəetmə, İT ilə bağlı yeniliklərin tədris prosesində ixtisasla paralel mənimsənilməsi gələcəyin peşəkar mütəxəssislərinin əsas baza biliklərinin formalaşmasında xüsusi rol oynayacaq. Ali təhsil müəssisəsi ilə şirkət əməkdaşlığının daha bir nümunəsi "Code Academy" şirkəti ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinə aiddir. "Code Academy"nin direktoru Ülvi Aslanovun rəhbərlik etdiyi nümayəndə heyətinin AzMİU rəhbərliyi ilə görüşündə əməkdaşlıq perspektivləri müzakirə edilib. AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova innovasiya sahəsində qabaqcıl şirkətlərlə universitet arasındakı əməkdaşlıqdan danışıb və bunun tələbələr üçün önəminə toxunub. "Code Academy"in rəhbəri Ülvi Aslanov şirkət haqqında məlumat verib və kadr hazırlığı sahəsində universitetlərlə əməkdaşlıqda maraqlı olduqlarını ifadə edib. O, "Code For Future" və növbəti illərdə gerçəkləşməsi nəzərdə tutulan layihələr haqqında danışıb. Görüşdə AzMİU ilə "Code Academy" arasında əməkdaşlıq məsələləri müzakirə olunub və əlaqələrin gücləndirilməsi qərara alınıb. Qeyd edək ki, "Code Academy" dərslərin Zəmanətli Təhsil Sistemi ilə Beynəlxalq Sertifikasiya imtahanlarının kurrikulumu əsasında keçirməsi ilə tanınır. Akademiya tələbələrə "Talant Mərkəzi", "Mentor Sistemi" kimi özəlliklər və müasir tədris metodları ilə praktiki məşğələlər təklif edir. Memarlıq və inşaat üzrə təhsil alan tələbələr Akademiyanın təklif etdiyi tədris proqramlarından yararlanmaqla hazırda daha çox tələbat duyulan sahələr - dizayn, dijital marketinq, proqramlaşdırma, İT və kiber təhlükəsizlik üzrə qabaqcıl təcrübəyə yiyələnmək imkanı əldə edə bilər. Niyə bu sahələrə maraq var? Dizayn brend və hədəf auditoriyası arasındakı vizual ünsiyyət əhatə edən bir sahədir. İndividuallığa ehtiyacın bu qədər artdığı bir dövrdə memarlıq və inşaatda qrafika, interior, exterior dizayn və hərəkətli qrafika kimi sahələrə böyük tələbat var. Tələbələr "Code Academy"də dizayn sahəsində arzuladıqları istiqamətdə özünü inkişaf etdirə və gələcəyin sahələrindən birinə yiyələnə bilər. Tələbələr qrafik və veb, digital memarlıq, UX/Uİ dizayn və hərəkətli qrafika kimi innovativ və tələb görən sahələri əhatə edən proqramlara qoşula bilər və dizayn sahəsində seçdiyi istiqamətdə ixtisaslaşa bilər. Burada dizayn bacarıqları korporativ proqramlara müraciət edilməklə təkmilləşdirilir. Bu isə qrafik dizayn, UX/UI kimi sahələrdə yaranmış mütəxəssis boşluğunun doldurulmasına kömək edəcək.

**Fəlsəfə doktoru Rafiq İsmayılov hesab edir ki, ali təhsil müəssisələrinin müxtəlif qurumlarla əməkdaşlığa meyilli olması müsbətdir:**

- Belə əməkdaşlıqlar ali təhsilimizin müasir standartlara daha çox yaxınlaşmasını, tədris prosesinin qabaqcıl dünya tədris metodlarıyla aparılmasını təmin edə bilər. Ən əsası, bu cür əməkdaşlıqlar sayəsində tələbələr təhsildən sonrakı mərhələyə hazırlıqlı olurlar. Onlar üçün belə imkan yaranır. Qloballaşan dünyada təkcə ali təhsil yetərli sayılmır. Peşəkar kadr hesab edilmək üçün iş təcrübəsinə malik olmalısan, kommunikativ olmağı bacarmalısan. Kommunikativ bacarıqlar odur ki, müxtəlif şəxslərlə işgüzar əlaqələr yarada bilirsən, peşə münasibətlərini müəyyənləşdirmək, fərdi yanaşma bacarığı, dinləmək, özünü təqdim etmək bacarığı, çalışdığın yerdə xeyirxah mühit yaratmaq... Hazırda kadrlardan tələb olunan bunlardır. Ali təhsil, ixtisasa yiyələnmək, peşə bacarıqları da öz yerində. Ali təhsil müəssisələri ilə müxtəlif qurumların əməkdaşlıqlarından tələbələrin ixtisas artımında və tələbat olan peşələrə və bacarıqlara yiyələnmələri üçün istifadə edilməlidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Naxçıvanda sıxıntılar daha çox işsizliklə bağlıdır

## Əgər Vasif Talıbovdan qalan bütün strukturlarda dəyişiklik olsa, müsbət nəticələr olacaq

**Naxçıvan Muxtar Respublikası (MR) Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsul vəzifəsindən azad olunub. Artıq onun yerinə təyinat da olub. Hüseyn Bağırov Naxçıvan MR Dövlət Statistika Komitəsinin sədri vəzifəsinə təyinat alıb.**

Ümumiyyətlə, son zamanlar Naxçıvan MR-da kadr dəyişikliklərinin sayı artıb. Bildiyimiz kimi, 2022-ci il dekabr ayının 22-də Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında fərman imzalayıb. Prezidentin sərəncamı ilə Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib.

**Bu təyinatdan sonra Naxçıvan Muxtar Respublikasında müşahidə olunan kadr dəyişiklikləri, əhalinin maddi və mənəvi rifahının artırılması istiqamətində hansı işlərin görülməsi ilə bağlı "Şərq"ə açıqlama verən tanınmış jurnalist Heydər Oğuz bildirib ki, doğrudur, Fuad bəyin təyinatından sonra burada bir sıra dəyişikliklər olub. Lakin Naxçıvanda özəl və dövlət sektorunun inkişafı yolunda daha ciddi addımlar atmaq lazımdır:** "Əhalinin bir çox məsələlərdə ciddi sıxıntıları davam edir. Bu sıxıntıların başında isə işsizlik gəlir. Naxçıvanda iş yerləri yetərli sayda deyil. Ümumiyyətlə, Naxçıvanda özəl sektorda bir çox problemlər mövcuddur. Özəl sektorun inkişafındakı əsas problem Naxçıvanın qapalı bir zona olmasıdır. İranla sərhədləri artıq bağlayırıq, yalnız Türkiyə ilə sərhəd mövcuddur. Belə olan halda xarici investorlar və yerli investorlar bu bölgəyə yatırım etmirlər. Problemin həll yolu isə Zəngəzur dəhlizinin açılıb istifadəyə verilməsidir. Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvanda ciddi canlanma yaranacaq və iqtisadi inkişaf müşahidə olunacaq".

**H.Oğuz daha sonra bildirib: "İranla son dövrlər yaşanan problemlər ölkə rəhbərliyinin sərhəd bölgəsində bu istiqamətdə ciddi addımlar atmasının qarşısında maneçilik yaradır.** Əgər Vasif Talıbovdan qalan strukturlar barəsində bir anda ciddi addımlar atılsa, o zaman sərhəddə narazılıqlar baş verə bilər və hazırkı vəziyyətdə hakimiyyət bunu istəmir. İranla olan məsələlər öz həll yolunu tapdıqdan sonra qısa zamanda orada ciddi struktur və kadr islahatları aparılacaq. Hər hansı məmuru dəyişmək, strukturu dəyişmək demək deyil. Bəzi qurumlar var ki, onların varlığının heç bir əhəmiyyəti yoxdur. Bu qurum ləğv edilməyənə və onların səlahiyyətləri əllərindən alınmayana kimi, Fuad Nəcəfli öz fəaliyyətini tam şəkildə göstərə bilməyəcək".

**Nihad Kərimli**

# Heç belə buxarlanma olmamışdı

## 10 il sonra Xəzərdə gəmilərin hərəkəti müşkülə çevriləcək

**Xəzər dənizinin səviyyəsi ildən-ilə azalmağa davam edir. Mütəxəssislərin fikrincə, azalma bu templə davam edərsə, 10 il sonra Xəzərdə gəmilərin hərəkəti müşkülə çevriləcək.**




*"2050-ci ilə qədər proses davam edəcək, lakin 2050-ci ildən sonra yenidən Xəzərin səviyyəsi qalxacaq"*

Coğrafiya İnstitutunun şöbə müdiri Səid Səfərovun "Xəzər Xəbər"ə açıqlamasına görə, Xəzər dənizi qapalı su hövzəsi olduğu üçün səviyyənin artması və ya azalması, əsasən iqlim dəyişikliyi ilə bağlı olur. Dənizi qidalandıran çayların səviyyəsi də buna birbaşa təsir edir. Şöbə müdiri əlavə edib ki, Kür çayının ölkəmizə daxil olan hissəsindəki səviyyəsi ötən ilə nisbətən 30 faiz çoxdur. Lakin çay Azərbaycana daxil olduqdan sonra sanki buxarlanır.

Kür çayının səviyyəsinin aşağı olması, eləcə də iqlim dəyişiklikləri Xəzərin səviyyəsinə ciddi təsir edir. S.Səfərov deyir ki, hazırda suyun səviyyəsində 32 sm azalma müşahidə olunur. Azərbaycan "Xəzər Dəniz Gəmiçiliyi" QSC-dən isə bildirilib ki, gəmilərin körpülərə maneəsiz yan almasının təmin edilməsi üçün Bakı limanında mütəmadi dib dərinləşdirmə işləri həyata keçirilir.

**Coğrafiya elmlər doktoru, professor Əmir Əliyev isə "Şərq"ə açıqlamasında deyib ki, Xəzər qapalı su hövzəsi olduğu üçün onun səviyyəsi dənizə daxil olan və gedən sularla əlaqədar dəyişilə bilir:** "Gəlir hissəni çay suları, yağıntılar və yeraltı sular təşkil edir. Xaric olunan isə dəniz səthindən buxarlanan və Qaraboğazgöl körfəzinə gedən sulardır. Əgər dənizə daxil olan su çox olarsa, səviyyə qalxır.

Xəzər dənizində onilliklər ərzində baş verən səviyyə dəyişmələri iqlim dəyişkənliyi, yüz, min illik səviyyə dəyişmələri isə Xəzər hövzəsində baş verən tektonik proseslərlə əlaqədardır. Hazırda gedən enmə prosesi iqlim faktoruna söykənir ki, bu da dənizin su balansı ilə müəyyən edilir. Su balansını təşkil edən elementlərin dəyişmələri Xəzərin səviyyə dəyişmələrini təyin edən əsas amildir.

Xəzərdən şimalda dənizə su gətirən iki böyük çay - Volqa bütün suların təxminən 80 faizini, Ural isə 5 faizini təşkil edir. Son illərdə Xəzərə gələn çay sularının təxminən 30 faizə qədər azalması və buxarlanmanın artması nəticəsində dənizin səviyyəsi enir. Buna əsas səbəb Xəzərin hövzəsi üzərində atmosfer sirkulyasiyası, siklon və antisiklonlardır".

Son illərdə dənizdə antisiklonik vəziyyət yarandığını vurğulayan professor deyib ki, indi şərqdən daxil olan küləklər quru hava kütləsi yaradır. Bu da buxarlanmanın artmasına şərait yaradır. Əvvəllər isə Atlantik okeanı sahillərindən rütubətli hava kütlələri daxil olurdu. Xəzərin səviyyəsinin 1996-cı ildən bu günə qədər 1.5 metr aşağı düşdüyünü vurğulamasına rəğmən Ə.Əliyevin proqnozları nikbindir. Onun fikrincə, 2050-ci ilə qədər dənizin səviyyəsi 3 m azalacaq. Lakin 2050-ci ildən sonra yenidən Xəzərin səviyyəsi qalxacaq. Professor bunun aparılan arxeoloji qazıntılar, gəlinən elmi nəticələrə söykəndiyini vurğulayıb: "Azərbaycan ərazisində ən böyük çəkilmələr Abşeron yarımadasının yuxarı hissəsində, Sumqayıt tərəfində müşahidə olunur və davam edəcək. Haradasa 100 m-ə qədər ərazi su altından çıxacaq. Çəkilmənin fəsadları Azərbaycanın cənub ərazilərində Neftçala, Kürçayı, Astaraya qədər olan ərazilərdə də müşahidə ediləcək".

Bu periodikliyin iqlim dəyişikliyi ilə bağlı olduğunu, əsrlər boyunca yağışlı-quraqlıq iqlimin bir-birini əvəz etdiyini vurğulayan alim hazırda Xəzərin hazırkı səviyyəsinin 1977-ci ildəki ən aşağı səviyyədən 1 metr yüksək olduğunu deyib: "Son 500 ildə dənizin ən minimal səviyyəsi 1977-ci ildə müşahidə olunub.

1929-cu ildən 1977-ci ilə qədər dəniz səviyyəsi 3 m aşağı düşüb, 1977-ci ildən 1995-ci ilə qədər səviyyə 2,5 m artıb, 1996-cı ildən bu günə qədər 1,5 m aşağı düşüb. Xəzər dənizinin səviyyəsinin dəyişməsi 4 minil müddətində periodikliyə malik olub. Yəni təxminən 200-250 il ərzində səviyyə aşağı düşüb, bir o qədər müddət ərzində də yenidən qalxıb. Gəlinən qənaətə görə, proses 200-250 il davam edəcəksə, dəniz səviyyəsi bugünkündən 3 metrə qədər aşağı düşə bilər. Bu, təxminən 2050-ci illərə qədər baş verəcək. 2050-ci ildən sonra isə Xəzər dənizinin səviyyəsində yenidən artma olacaq ki, bu da periodikliyin qalxma vəziyyətinə uyğun gəlir. Lakin 200-250 illik düşmə dövründə dənizdə qalxmalar da müşahidə oluna bilər ki, bunun təxminən 30 illik dövrdə baş verdiyi müəyyən edilib. Hər 30 ildən bir Xəzərin səviyyəsində 0,5 m-ə qədər qalxma ola bilər. Dənizin səviyyəsinin ən son yüksəlməsi 1995-ci ildə olubsa, təxminən 2032-ci illərdə 0,5 m-ə qədər qalxma mümkündür".

Xəzər dənizinin səviyyəsinin enməsinin ciddi bir təhlükə olmadığını vurğulayan professorun sözlərinə görə, Xəzərdəki qalxıb-enmələr sadəcə ətraf ərazilərə, infrastruktura, insanların fəaliyyətinə mənfi təsir göstərir.

**Şəymən Bayramova**

# "Biz deyirdik ki, bu işin axırı pis olacaq"

## Cavanşir Quliyev: “Musiqi zövqü korlanan insanların tərbiyəsi də olmur”

**Əməkdar İncəsənət xadimi Cavanşir Quliyev Bakıya birdəfəlik qayıtdıqdan sonra bir çox verilişlərdə qonaq olub, mütəmadi müsahibələr verir. Cavanşir müəllim kimi sənətkarı tez-tez görməyə, məsləhətlərini eşitməyə çox ehtiyac duyurduq. Hələ ki, bayağılığın, insanların zövqünü korlayan mahnıların, ifaçıların qulağımıza, gözümüzə zülm etdiyi bir vaxtda onu və onun kimi dühaları axtarırıq. Bu məqamda ev telefonuna zəng edib, Cavanşir müəllimlə qısa söhbət etdik.**



*Bəstəkar ”Şərq”ə Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin monitorinqlərindən, mədəniyyət sahəsində aparılan islahatlardan, səhətindən danışdı.*

**- Yəqin ki, ”Mahnılarımız monitorinq aynasında” kitabından və siyahılardan xəbərdarsınız. Bununla bağlı siz nə düşünürsünüz?**

- Mən və bəzi həmkarlarım 30 il bundan əvvəl bu barədə danışmışdıq. Həmin qəzetlər mənim arxivimdədir, saytlarda dərc olunan açıqlamalarımın arxivi qalıbsa, orada da durur. Biz deyirdik ki, bu işin axırı pis olacaq. O dövrdə yutub, feysbuk yox idi, yalnız elektron məktublar yaza bilirdik. Hər şey televiziya kanallarında, konsertlərdə baş verirdi. Onda deyirdik ki, bu gedişat təhlükəlidir, keyfiyyətsiz mahnıları təbliğ etmək olmaz. Bizi dinləyən olmadı. Çünki bəzi insanlar fikirləşirlər ki, hansısa vəzifəyə təyin olunanda, gecə yatıb səhər durana qədər bütün biliklər beyinlərinə dolacaq. Belə hiss edirlər ki, hamıdan çox bilirlər və kimsəni dinləmirlər.

**- Hələ o dövrdən siz xəbərdarlıq etmisiz...**

- Bəli. Bildirirdik ki, sonu pis olacaq, milyonlarla zövqsüz və musiqi qulağı olmayan insan yetişdirəcəksiniz. Bunlar sürü halında olacaq və heç nəyi dinləməyəcəklər. Bu keyfiyyətsiz, bayağı adlanan mahnılardan başqa heç nəyə qulaq asmayacaqlar. Onların zövqləri korlanacaq. Zövqü korlanan insanın mədəniyyəti də, tərbiyəsi də olmur. O vaxt dediklərimizin hamısı indi baş verir. Dövlət strukturu də işə qarışmağa məcbur olub. Bəs biz bunu onda deyəndə niyə diqqət edilmirdi? İndi isə heç nəyin faydası olmayacaq. Çünki internet dövründə bunların qarşısını ala bilməyəcəklər. Bu mahnıların əksəriyyəti sosial şəbəkələrdə səslənir, efirdə o qədər də çox deyil. Şəhərdə dəfələrlə görmüşəm ki, avtomobildə dinləyirlər, səsini də yüksəldirlər ki, yolda gedən insanlar da eşitsin. Baxın, belə tərbiyəsiz nəsil yetişir. Onları heç bir dəyərli keyfiyyəti sənət əsərlərinə cəlb etmək mümkün olmayacaq. Bu uşaqlıqdan gəlməlidir. Yekə adamlardır, onlara zorla nəyisə dinlətdirmək olmaz.

**- Sizcə, heç irəliləyiş olmayacaq?**

- Proqnozum çox pessimistdir. Azərbaycan cəmiyyəti get-gedə mədəniyyətsizləşir. Baxmayaraq ki, Filarmoniayda çox konsert təşkil olunur. Amma bu gənclərin maraq dairəsində deyil, getmirlər. Tədbirlərə yığışan insanlar ya musiqiçilərin dost-tanışıdır, ya da musiqiçilərdir. Televiziyada yayımlananda da başqa kanala çevirirlər. Vəziyyət yaxşı deyil. Bu elə bir vəziyyətə gətirib çıxaracaq ki, Azərbaycanda musiqiçilərin də keyfiyyəti aşağı düşəcək. Hər şeyi itirəcəyik. Üzeyir bəyin bünövrəsini qoyduğu mədəniyyət zəlzələdə yıxılan binalar kimi çatlayıb töküləcək.

**- Mədəniyyət nazirinin səlahiyyətlərini müvəqqəti icra edən Adil Kərimli bir sıra islahatlar həyata keçirir. Məsələn, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru dəyişdi, Xalq artisti Yusif Eyvazov bu vəzifəyə təyin olundu. Bundan başqa, bir sıra işdən çıxarılmalar oldu. Siz nə düşünürsünüz, fikrinizcə, mədəniyyətimizin inkişafında bu islahatlar hansı rolu oynayacaq?**

- İslahatlar lazımdır. Mən daha dərin islahatlar keçirərdim. İnşallah, faydası olar. Hər bir islahatı alqışlamaq lazımdır. Hamımız nəticəsinin yaxşı olmağını istəyirik.

**- Özünüz, səhətiniz necədir?**

- Şükür Allaha. Sizinlə söhbət edirəmsə, deməli, danışmaq imkanım var *(gülür).*

**- Bakıya yeni gələndə sizi verilişlərdə tez-tez görürdük. Sanki indi daha az efirə çıxırsız. Səbəb nədir? Dəvət gəlmir, yoxsa özünüz getmək istəmirsiz?**

- Məlumatınız yanlışdır. Son zamanlarda da gəlib çəkirlər. Ola bilər ki, siz sadəcə görə bilmirsiniz. Verilişlərdə yenə varam, problem yoxdur.

**- Yaradıcılığınız nə yerdədir? Yeni əsərlər bəstələyirsiniz?**

- Dayanmadan yazıram. Amma əsərlərim haqda danışmaq istəmirəm.

**Samirə Ərəblinskaya**

# "Azərbaycanda aptek işçilərinin çoxu əczaçılığı bitirməyiblər"

## Həkim Şəmsiyyə Namazlı: ”Heç texnikum məzunu da deyillər, sanki mağazada pendir, yağ satırlar”



**”Nəinki A, D, E, B vitaminlərini, hətta heç bir dərman həkim təyinatı olmadan qəbul edilməməlidir”.**

Bunu ”Şərq”ə tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı vitaminlərin özbaşına qəbulu zamanı yarana bilən problemlərdən danışarkən deyib. Onun sözlərinə görə, müayinədən sonra pasiyentin hansı vitaminə ehtiyacı yarandığı müəyyənləşdirilir: ”Məsələn, A vitamini çatışmayanda dəridə quruluq, saçda kəpək, görmədə zəiflik yaranır. D vitamini isə 12 xəstəliyə səbəb olur. Pasiyent həkim yoxlanışından keçmədən D vitamini qəbul edərsə, hipervitaminoza (vitamin çoxluğuna) gətirib, çıxarar. Nəticədə qaraciyər, böyrək çatışmazlığı kimi problemlər yaşana bilər. Təkcə D vitamininin qəbulu sanki vurma cədvəlinə bənzəyir. 2x2 həmişə 4 etdiyi kimi, dəqiqlik istəyir.

Hər damcı rol oynayır. Amma buna əhəmiyyət verilmir, özbaşına, həkim nəzarəti olmadan qəbul edirlər. Əslində hər yaşa və analiz nəticələrinə uyğun şəkildə təyinat aparılmalıdır. Gündəlik, həftəlik, aylıq doza var. Bu da pasiyentin qanında olan vitamin D-nin miqdarından asılıdır. Məsələn, 50 ml-lik doza vitamin alınırsa, onun bir damcısının tərkibini bilməliyik. Xəstə yoxlanılmadan aptekdən 50 ml-lik doza alır. Gündə 5 damcı içir. Axı bunun insan orqanizminə heç bir faydası yoxdur.

Çox içəcəksə, problemlər baş qaldıracaq, az qəbul edəcəksə də, xeyri olmayacaq. Həkim bir flakonun miqdarının, dozasının nə qədər olduğunu hesablamalıdır. Məsələn, xəstə 50 ml-lik doza vitamin D alıb. Bundan gündə 22 damcı içməlidir. 21 damcı qəbul etsə, az, 23 damcı isə vitamin çoxluğuna səbəb olacaq.

Çox təəssüf ki, Azərbaycanda aptek işçilərinin çoxu əczaçılığı bitirməyiblər. Heç texnikum məzunu da deyillər. Sanki mağazada pendir, yağ satırlar. Belə olduğu halda pasiyentə nə məsləhət verə biləcəklər?! Xəstələr də fəsadlarla qarşılaşandan sonra həkimə müraciət edirlər”.

Qeyd edək ki, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyev Nazirliyin instaqram səhifəsində canlı yayım açıb. O bildirib ki, həkim nəzarəti olmadan vitamin qəbulu düzgün deyil, A, D, E, B vitaminləri özbaşına qəbul edilə bilməz.

**Sücayət Mehti**

# Özbaşına tikinti işləri aparanlar 500 manat cərimələnəcək

## Əgər cərimələr artıq tikilmiş fərdi yaşayış evlərinə də şamil ediləcəksə, bu düzgün yanaşma deyil

**Özbaşına tikinti işlərinin aparılmasına görə cərimələr artırılır. Bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb.**

Hazırda qüvvədə olan qanuna görə, müvafiq icra hakimiyyəti orqanının və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun icazəsi alınmadan Şəhərsalma və Tikinti Məcəlləsində müəyyən edilmiş tikintisinə icazə tələb olunan tikinti obyektlərinin inşa edilməsinə görə fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir. Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun icazəsi alınmadan Şəhərsalma və Tikinti Məcəlləsində müəyyən edilmiş tikintisinə icazə tələb olunan tikinti obyektlərinin inşa edilməsinə görə fiziki şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər iki min beş yüz manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə ediləcək.

**Daşınmaz Əmlak eksperti Elnur Fərzəliyev isə ”Şərq”ə açıqlamasında deyib ki, qanunsuz tikililərin sahiblərini cərimələmək çıxış yolu deyil və bu cərimələrin artırılması da heç bir effekt verməyəcək:**

***"Ən optimal variant sənədsiz evləri qeydiyyata alaraq çıxarış verərək, onları vergiyə cəlb etməkdir"***

”Bu cərimələmə tikinti mərhələsində həyata keçirilirsə, gələcəkdə qanunsuz evlərin sayının artmamasına müəyyən qədər təsir edə bilər. Yox əgər bu cərimələr artıq tikilmiş fərdi yaşayış evlərinə də şamil ediləcəksə, bu, düzgün yanaşma deyil. Bakı və Abşeronda çıxarış ala bilməyən yüzminlərlə tikili var. Qeyri-rəsmi statistikaya əsaslansaq, beş yüz mindən çox təkcə Bakı və Abşeron ərazisində çıxarışı olmayan həyət evi var.



Onların əksəriyyətində torpaqların təyinatı fərqlidir. Bir qismi isə torpağı bələdiyyədən alıb və bələdiyyə sərəncamı ilə də ev tikib. İndi isə çıxarış ala bilmir ki, sən demə o ərazilər bələdiyyə torpağı deyilmiş. Qısaca deyim ki, özbaşına tikinti o demək deyil ki, hansısa bir vətəndaş istədiyi yerdə gedib özünə ev tikir. Hansısa qurumla razılaşır, torpaq alır, tikinti üçün ödəniş edir. Sadəcə ona satılan torpaq təyinatlı olmadığı üçün son mərhələdə çıxarış ala bilmir. Hesab edirəm ki, cərimələnmə ilə bu cür qanunsuzluqlara son qoymaq real deyil. Ən optimal variant sənədsiz evləri qeydiyyata alaraq çıxarış verərək onları vergiyə cəlb etməkdir. İnsanlar həmin evlərdə onsuz da yaşayır, kommunal xərcləri ödəyirlər. Həmin ərazilərdə çıxarışların olmaması səbəbindən həm vətəndaşlar əziyyət çəkir, həm də bələdiyyə və dövlət büdcəsi vergilərdən yararlana bilir. Bəli, qanunvericilikdə çıxarış olmalıdır ki, bu sənəd üzərindən bələdiyyə vergi toplaya bilsin”

**Şəymən**

# "Xəbəri eşidəndən şokdayam"

## Nigar Köçərliyə elə bir orden verildi ki, çaşıb qaldı



***"Həyatımda aldığım ilk mükafatdır. Bu günə qədər nəinki beynəlxalq, heç ölkə daxilində belə hansısa bir fəxri adla təltif olunmamışam"***

**”Əli və Nino” kitab mağazaları şəbəkəsinin təsisçisi Nigar Köçərli Fransanın yüksək ordeninə layiq görülüb. Fransanın İncəsənət və Ədəbiyyat Ordeninin (Ordre des Arts et des Lettres) Cəngavər rütbəsi ilə təltif olunub.**

Biz də ”Şərq” olaraq ”Cəngavər” rütbəsi münasibəti ilə Nigar xanımı təbrik etmək və təəssüratlarını öyrənmək üçün onunla əlaqə saxladıq.

Belə bir yüksək ordenə layiq görüldüyü üçün həddindən artıq sevincli olduğunu vurğulayan N.Köçərli xəbərin gözlənilməz olduğunu deyib: ”Yəqin ki elə buna görə də çox sevinib. Bilirsiniz ki, Fransa ordeni ölkənin ən yüksək mükafatlarından biridir və adətən müxtəlif ölkələrin ən görkəmli və tanınmış ədəbiyyat, incəsənət xadimlərinə, şair və yazıçılarına verilir.

Mənə də məhz ədəbiyyat sahəsindəki xidmətlərimə görə verilib.

Ötən günlərdə Azərbaycandan bu mükafat ”Qanun” Nəşrlər evinin direktoru Şahbaz Xuduoğlu və ”Xalça” muzeyinin direktoru Şirin Məlikovaya verilmişdi. Sözün düzü, təşəbbüs kimdən gedib, necə olub, hansı prinsiplərə görə məhz məni seçiblər heç bir məlumatım yoxdur və mənə açıqlama da verilmədi. Sadəcə olaraq Fransanın Azərbaycandakı səfirliyindən mənə bildiriş gəldi ki, Fransanın İncəsənət və Ədəbiyyat Ordeninə layiq görülmüşəm. Sözün düzü, xəbəri eşidəndən şokdayam. Mənim üçün kifayət qədər böyük hadisədir. Hətta deyərdim ki, həyatımda aldığım ilk mükafatdır. Bu günə qədər nəinki beynəlxalq, heç ölkə daxilində belə hansısa bir fəxri adla təltif olunmamışam.

Fransanın müxtəlif nəşriyyatları ilə işləyib, fransız dilli kitabların satışını təşkil etsək də, Fransa dövləti ilə heç bir rəsmi əməkdaşlığım olmayıb.

Görünür, Azərbaycan ədəbiyyatının təbliği, mütaliə mədəniyyətinin inkişafı istiqamətindəki xidmətlərimə görə bu qərara gəliblər. Etimada görə Fransa dövlətinə təşəkkür edirəm”.

N.Köçərli ”Cəngavər” ordeninin təqdimetmə mərasiminin mayın 4-də Fransanın Azərbaycandakı səfirliyində baş tutacağını deyib.

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 852





## Bill Qeyts nəvəsi ilə ilk görüntüsünü paylaşıb

"Dünyanı kəşf etməyinizi görmək üçün səbirsizlənirəm"

**"Microsoft"un qurucusu Bill Qeytsin qızı Cennifer Qeyts həyat yoldaşı Nayel Nassarla ilk körpələrini qucaqlarına alıb.**

"Şərq" xəbər verir ki, dünyanın ən zəngin adlarından biri olan Bill Qeytsin qızı Cennifer Qeyts ötən ay ana olub. 114 milyard dollarlıq sərvətlə dünyanın dördüncü ən varlı adamı olan Bill Qeyts nəvəsi ilə ilk görüntüsünü yayımlayıb. Nəvə sevincini yaşayan Qeyts paylaşımına "Dünyanı kəşf etməyinizi görmək üçün səbirsizlənirəm" qeydini yazıb.

*Qeyd edək ki, Qeyts və Nayel Nassar ötən ilin oktyabrında Nyu-Yorkda evləniblər.*

**Turan**

## Pike xəyanətlə qarşılaşıb

Keçmiş futbolçunun sevgilisi Pep Qvardiola ilə eşq yaşayır



**Dünya ulduzu Şakiraya xəyanət edən keçmiş futbolçu Jerard Pikenin bu dəfə özü eyni halı yaşayıb.**

"Şərq" xəbər verir ki, Pikenin sevgilisi Klara Çianın məşqçi Pep Qvardiola ilə eşq yaşadığı söylənilib.

Məlumata görə, 52 yaşlı Qvardiolanın uşaqları Klara ilə eyni müəssisədə təhsil alır və onlar tez-tez görüşür.

Digər bir iddiada isə bildirilir ki, Klara hələ münasibətlərinin lap əvvəlində Pikenin ona hüquqşünas ilə xəyanət etdiyini düşünüb. Buna görə də, ondan bu yolla qisas almağa çalışıb.

Bu xəbər sosial şəbəkələrdə xeyli müzakirə yaradıb. İstifadəçilər "Aldadan aldandı" kimi şərhlərlə Pikenin xəyanətə məruz qalmasına sevindiyini bildirib.

*Qeyd edək ki, Şakira ilə Pikenin iki oğlan övladı var.*

**Samirə**

## Üzük taxdılar

Morrone növbəti dəfə evlənməyə hazırlaşır



**"Netflix"in məşhur "365 days" filminin ulduzu Mikelle Morrone növbəti dəfə evlənməyə hazırlaşır.**

**"Şərq" xəbər verir ki, sənətçi sevgilisi Moaro Sorio ilə nişanlanıb. Bununla bağlı Mikelle instaqramda paylaşım edib və nişanlısı ilə üzük taxdıqları görüntüləri səhifəsində yerləşdirib.**

***Qeyd edək ki, bu, aktyorun ikinci evliliyi olacaq. Onun birinci nikahından iki övladı var.***

**Samirə**

## "Kızılcık şerbeti"nə qadağa qoyulmadı

Buna səbəb "Show" TV-nin quruma etirazı olub



**Son günlərin qalmaqallı serialı "Kızılcık şerbeti" ilə bağlı hüquqi proses davam edir.**

**"Şərq" xəbər verir ki, Türkiyənin Radio və Televiziya Şurasının (RTÜK) ekran işinə tətbiq etdiyi 5 həftəlik yayım qadağası bu dəfə də tətbiq olunmayıb.**

**Buna səbəb isə "Show" TV-nin quruma etirazı olub. Tərəflər arasındakı məhkəmə prosesi hələlik dayandırılıb.**

**Ehtimal edilir ki, seriala tətbiq olunan qadağa növbəti həftədən başlayacaq.**

**Samirə**

## Bred Pitt evini öz qonşusuna verib

105 yaşlı kişi ölənə qədər burada yaşayacaq



**Dünyaca məşhur aktyor Bred Pittlə bağlı maraqlı fakt üzə çıxıb.**

**"Şərq" xəbər verir ki, tez-tez mülkləri ilə gündəm olan Bred bu dəfə xeyirxah addımıyla danışılıb.**

**Məlumata görə, Hollivud ulduzu Los-Ancelesdə yerləşən evini öz qonşusuna verib.**

**Daha doğrusu Pitt 1994-cü ildə aldığı mülkdə xanımı vəfat etmiş 105 yaşlı kişinin ölənə qədər yaşamağına icazə verib.**

**Deyilənə görə, Bred həmin şəxslə çox alicənab şəkildə rəftar edib. Bundan əvvəl isə aktyorun Kaliforniya sahilində yerləşən tarixi ev üçün 40 milyon dollar (68 milyon manat) ödəməyi gündəm olmuşdu. Məlumata görə, "Məşhurlar cənnəti" adlanan ərazidə yerləşən malikanə ilə bağlı faktlar uzun müddət danışılmışdı.**

**Samirə**







# Birinci yerdə Berlin qərarlaşıb

## Dünyanın ən yaxşı ictimai nəqliyyatına sahib şəhərlər açıqlanıb

**Dünyanın ən yaxşı ictimai nəqliyyata sahib şəhərləri məlum olub. "NTV.com.tr" xəbər verir ki, qlobal miqyasda turizm-səyahət xidmətləri icra edən "Time Out" şirkəti 50 ölkəni təmsil edən 20 min respondent arasında "ən yaxşı ictimai nəqliyyata sahib şəhərlər" sorğusu keçirib.**



Sorğu Avropa və Asiyanın məşhur şəhərlərini əhatə edib. İlk onluğa düşən şəhərləri təxmin etmək elə də çətin deyil. Birinci yerdə isə Almaniyanın paytaxtı Berlin qərarlaşıb. Respondentlər Berlini ən yaxşı ictimai nəqliyyat sisteminə malik şəhər kimi qiymətləndiriblər. İctimai nəqliyyat növləri arasına isə dəmir yolu, avtobus, tramvay, metro, feribotlar (bərə) daxil edilib. İlk onluğa daxil olan şəhərlər bunlardır: Berlin, Praqa, Tokio, Kopenhagen, Stokholm, Sinqapur, Honq-Konq, Taipei (Tayvan) və Şanxay. Siyahıda Mumbai, Pekin, Çikaqo, Monteal, Nyu-York, Paris, Edinburq, Madrid, London da var. Lakin bu şəhərlər ilk onluqdan sonradır. Görəsən, Bakımız, nə vaxt bu şəhərlər sırasında olacaq?

**Məlahət**



## Səhvən içi qızıllarla dolu yorğanı göndərdi

Məcnun 2 aydır zəlzələ bölgəsindən xəbər gözləyir



**Türkiyədəki dəhşətli zəlzələ toplumun yardımsevər olduğu gerçəyini bir daha ortaya qoydu. Məlumdur ki, həm qardaş Türkiyənin özündə, həm də Azərbaycandan, eləcə də dünyanın müxtəlif ölkələrindən yardım karvanları yola çıxdı, insanlar zəlzələdən zərər çəkənlərə bacardıqları qədər yardım etməyə çalışdılar.**

Yardımlar hələ də davam edir. Bu arada isə bəzi vətəndaşların zəlzələ bölgəsinə göndərdikləri yardımlarda yanlışlığa yol verdikləri məlum olub. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Türkiyənin Bayburt bölgəsində təmizlikçi işləyən, bələdiyyədən əməkhaqqı alan Məcnun Şenər Kahramanmaraşdakı zərərçəkənlərə yardım kampaniyasına qoşulmaq istəyib. Əməkhaqqı kiçik olsa da, Məcnun soydaşlarına yardım göndərməkdən çəkinməyib. Ev əşyaları arasından işlənməmiş 2 yun örtükdən birini Bayburt bələdiyyəsi xəttiylə zəlzələ bölgəsinə göndərib. Demə, örtüyün arasında ailəyə məxsus qızıllar varmış. Məcnun həyat yoldaşına məxsus boyunbağını, üzükləri, sırğaları özü yun örtülərindən birinin arasına qoyubmuş. Yardım üçün səhvən arasında qızıllar olan örtüyü göndərib. "Qızılları pula çevirmək istəyirdim, qoyduğum yerə baxdım, yoxuydu. Evin altını üstünə gətirdik, tapılmadı. Anladım ki, örtüyü səhv göndərmişəm", deyən Məcnun 2 aydır zəlzələ bölgəsindən xəbər gözləyir. Məcnun deyib ki, o qızıllar uşaqlarının çörək puludur: "Lütfən, kim tapsa, geri göndərsin. Bilərziklərin üzərinə həyat yoldaşı ilə özünün və övladlarının adları yazılıb: Məcnun, Ennurə, Aylin, Ramazan. Bu adları görənlər, xahiş edirəm qızılları bizə göndərsinlər. Yardım etmək istəyərkən özümüz çətin duruma düşmüşük".

**Məlahət**

## Kral ailəsinin kölə ticarətiylə bağlantısı

Kral Çarlz araşdırmaya izin verdi



**İngiltərə Birləşmiş Krallığının başçısı, kral III Çarlz tacqoyma mərasiminə hazırlaşdığı bir vaxtda tarixi həqiqətlərlə üz-üzə gəlib.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Mançester Universiteti Tarixi Krallıq Sarayları ilə birgə tədqiqata başlayıb. Tədqiqat XVII və XVIII əsrlərdə Bekingem sarayı və kral sülaləsinin qul ticarətində nə dərəcədə rol aldığını əhatə edir. Tədqiqatçıların məqsədi həm də Birləşmiş Krallığa aid ərazilərdə qul ticarətinin olub-olmamasını araşdırmaqdır. "Guardian" qəzetinin yazdığına görə, kral ailəsi belə bir tədqiqatın aparılmasına ilk dəfədir ki, razılıq verir. Kral III Çarlz bu məsələdə loyal münasibət sərgiləyir. Kral arxivlərin açılmasına, kolleksiyaların incələnməsinə razılığını ifadə edib. Kral Çarlz köləliklə bağlı araşdırmalara dəstək verdiyini də bildirib. Qeyd edilir ki, bundan öncə "Guardian" qəzeti Böyük Britaniya monarxiyasının 270 illik bir dönəmdə kölə ticarətiylə bağlı olduğunu, 12 kral və kraliçanın bu ticarətdə iştirak etdiyini və kölə ticarətindən əldə olunan gəlirləri açıqlamışdı. Belə bir araşdırmaya kralın dəstək verməsi isə ilk dəfə baş verir. Araşdırmanı dəstəkləməklə Kral III Çarlz ilkə imza atıb. Araşdırmanın 2026-cı ildə tamamlanacağı gözlənilir. Kral III Çarlzın tacqoyma mərasimi isə may ayının 6-na planlaşdırılıb. Mərasim Vestminster Abbeydə düzənlənəcək.

**Məlahət**

## Faciəvi sonluq...

Sobaya gel atdı, həyatından oldu



**Zonguldakda sobaya atdığı gelin partlaması nəticəsində yaralanan şəxs müalicə olunduğu xəstəxanada bütün müdaxilələrə baxmayaraq həyatını itirib.**

Məlumata görə, təxminən bir ay əvvəl baş verən hadisədə Hasbeyler kəndindən Gülsüm və Rəcəb Ergenekonun qızları Semra Ergenekon Tikici evində sobaya gel atıb. Bu zaman partlayış nəticəsində ağır yaralanıb. Ünvana gələn təcili yardım gənc qadını Ankaradakı xəstəxanaya çatdırıblar. Təxminən 1 aya yaxın burada müalicə alan Ergenekonu bütün müdaxilələrə baxmayaraq xilas etmək mümkün olmayıb.

**Turan**

## Sibel Canın qızı da ailə qurur



**Türkiyəli müğənni Sibel Canın qızı Melisa Ural ailı qurur.**

Axşam.az xəbər verir ki, Melisa Alaattin Kadayıfçıoğlu ilə nişanlanıb.

*Qeyd edək ki, Melisa Sibelin Hakan Uralla evliliyindən olan qızıdır. Bir müddət əvvəl müğənninin oğlu Engin Can Ural da evlənmişdi.*